# 8 Martda 400 Şəhid anası biraraya gəldi


# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№10 (3349) 11 Mart / 2025-ci il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qəpik


ANA XƏBƏR



## Sahil Babayev dəyişikliyə başladı

# Sabiq millət vəkili rəsmi qurumları hədəf aldı



Nəsib Nəsibli: "Sərhəddən bu qədər narkotiki birtərəfli keçirmək mümkün deyil"

3

GÜNÜN NƏBZİ

Gündəm



## "Bunun özü uğur hekayəsi deyil, bəs nədir?!"

Hikmət Babaoğlu: "Bu, narkotiklə mübarizədə Azərbaycan dövləti adına zəfər tarixidir..."

3

Xəbər

## ADP hakimiyyəti beynəlxalq öhdəlikləri yerinə yetirməyə çağırdı

Partiya ölkəmizin demokratiya göstəricisinə görə, Cənubi Qafqazda geridə qalmasından narahatdır

2

Toplum

## Zərdabın icra başçısı haqda şok ittihamlar

"İcra başçısı deyir ki, əmlakını satıb, bizə 3 milyon 200 min manat verəcəksən"

7

Cəmiyyət

## Xocalıda bərpa işləri görən "Dostluq" şirkəti işçilərə "atıb"?

Ağdam sakini Əhliman Novruzov: "Şirkət mənə borclu olduğu 1500 manatı vermir"

12

Xəbər

## Məşhur iş adamına hökm oxundu...

Fuad Allahverdiyevin keçmiş həyat yoldaşından şok iddialar

2

Baxış



## "Gənclər arasında narkotik istifadə edənlərin sayı artır"

Fatimə Hacıbəyli: "Narkotik maddələrin qanunsuz dövriyyəsi cinayətkarlığın artmasına səbəb olur"

11

Layihə



## Azərbaycanda vətəndaş cəmiyyətinin mövcüd durumu

Əliməmməd Nuriyev: "QHT-lərin ən böyük problemlərindən biri alternativ maliyyə mənbələrinin məhdud olmasıdır"

9

Təhsil

## ADAU-da baş verən qanunsuzluqların izi ilə

Tələbələr "Hürriyyət"ə şok faktları açıqladılar...

Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) bir qrup tələbəsi tərəfindən "Hürriyyət"in redaksiyasına məktub daxil olub. Universitetdə baş verən və "artıq dözülməz həddə çatan" problemlərlə bağlı yazan tələbələrin müraciətini olduğu kimi dərc edirik: "Öncə onu qeyd edək ki, bu, yalnız bizim narazılığımız deyil, həmçinin yüzlərlə tələbənin haqsızlığa, ədalətsizliyə qarşı baş qaldıran etirazıdır. Hazırda ADAU-nun vəziyyəti bir universitetin deyil, məhz şəxsi təsərrüfatın dağıdılması səhnəsini xatırladır...

6

Ölkə

## Sumqayıt Bələdiyyəsinin şok qanunsuzluğu

Vətəndaşlara məxsus torpaq sahəsi köhnə tarixlə "Skan" MMC-yə icarəyə verilib; ikinci isə "şəhid anası"nın adından istifadə edir...

Sumqayıt şəhər sakinləri Sədiyev Şahin Zeynal oğlu, Baxşəliyev Əkbər Əbdüləli oğlu və Gülməmmədov Sərxan Rizvan oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Sumqayıt şəhər Bələdiyyəsi və Sumqayıt şəhəri, məhəllə 5, Nizami küçəsi 16-də yerləşən "Skan" MMC barəsində şikayət edən sakinlərin məktubunu olduğu kimi dərc edirik...

5

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№10 (3349) 11 Mart / 2025-ci il Həftədə 1 dəfə çıxır Qiyməti: 60 qəpik

# Tramp "kişi" və "qadın" sözlərini yasaqladı



## Rəsmi sənədlərdə yüzlərlə sözün istifadəsinə məhdudiyyətlər qoyulur...

**Tramp administrasiyası rəsmi sənədlərdə yüzlərlə sözün istifadəsinə məhdudiyyətlər qoyur. Donald Tramp administrasiyası istifadə edilən terminologiyaya nəzarəti gücləndirərək federal aparatda islahatlara davam edir.**

"The New York Times"ın əldə etdiyi hökumət sənədlərinə əsasən, müxtəlif agentliklərə rəsmi qeydlərdən və ictimai materiallardan yüzlərlə söz və ifadəni məhdudlaşdırmaq və ya ləğv etmək tapşırılıb.

Qadağan olunmuş terminlər arasında gender kimliyi, irqi ədalət, sosial inklüzivlik və ətraf mühit problemləri ilə bağlı sözlər var. Məsələn, agentliklərə "kişi", "qadın", "ana südü", "gender kimliyi", "iqlim böhranı", "irqi ədalət" və bir çox başqa ifadələrdən qaçınmaq tövsiyə olunur. Siyahıya mədəni müxtəliflik, sosial ədalət və azlıqların hüquqları ilə bağlı sözlər də daxil edilib.

Dəyişikliklərin bəziləri artıq dövlət qurumlarının internet saytlarında öz əksini tapıb, burada terminologiyaya yeni siyasəti əks etdirmək üçün düzəliş edilib.

5000-dən çox səhifənin təhlili göstərib ki, onların yüzlərlə sözündə müxtəliflik, bərabərlik və daxilolma, o cümlədən ayrı-seçkilik və azlıqların hüquqları ilə bağlı məsələlər çıxarılıb və ya dəyişdirilib.

Tramp administrasiyası bu siyasəti meritokratiya prinsiplərinə meydan oxuduğuna inandıqları "oyanmış" təşəbbüslərə qarşı mübarizə kimi əsaslandırır. Bununla belə, tənqidçilər bunu mühüm sosial məsələlərin müzakirəsini boğmaq və federal strukturlar daxilində söz azadlığını məhdudlaşdırmaq cəhdi adlandırırlar.

Qadağan olunmuş terminlərin siyahısı yəqin ki, yekun deyil və dildəki dəyişikliklər administrasiyanın yeni prioritetlərini əks etdirməyə davam edə bilər.

# Qəssab piyin, keçi canı hayında



*Hamı görür Tramp kimi timsahı,*
*Gündən-günə artır tamah, iştahı!*
*Özün sayır bu dünyanın tək şahı,*
*Dəstək oldun Putin kimi Tirana,*
*Ləkə saldın Amerkanın adına!*

*Amerkanın adı, sanı var idi;*
*Azadlığın başındakı çar idi,*
*Ədaləti, xoş imici var idi.*
*Gəlişinlə sən çalxadın cahanı!*
*Pozdun tamam dəngələri, nizamı!*

*Amerikanı güvənc yeri sayırdıq,*
*Hər bir zaman dəstək, yardım alırdıq,*
*Arxamızda dağ durduğun sanırdıq,*
*Tərifləyib Putin kimi alçağı,*
*Körüklədin öləzəyən ocağı!*

*Amerkanın etibarın yox etdin,*
*Azadlığın carçısına lağ etdin: -*
*Barıtını vallah, elə çox etdin.*
*Ay vicdansız, deyirlər ki, hər yanda: -*
*"Qəssab piyin, keçi canı hayında!*

*Lənət olsun Putlerin lap zatına,*
*Qanunları salıb ayaq altına!*
*Qorxu salıb qonşuların canına,*
*Tərifləyib onu daha qudurtdma,*
*Bu cəlladı başımıza çıxartma!*

*Qayda-qanun, haqq-ədalət itəndə,*
*Güclü, zalım məzlumları əzəndə,*
*Sən yardımı geri tələb edəndə,*
*Üstünə də beş qatını qoyanda,*
*Düşünmürsən, nələr olar dünyada!?*

*Budapeştdə sizlər zamin duranda,*
*Ukraynadan atomunu alanda,*
*Putin ona təcavüzə varanda,*
*Lazımınca vermədiniz cavabın,*
*Almadınız mühərbənin qabağın!*

*Anlaşmanı heç yadına salmırsan,*
*Günahını öz üstündən atırsan,*
*Xoruzlanıb niyə belə coşursan!?*
*Bu yaraşmır Amerkanın adına,*
*Çünki yetib məzlumların dadına!*

*Dünya qalıb iki həpənd əlində,*
*Yaxşı düşün, gör durmusan kiminlə!?*
*Xəcil oldun dünya-aləm içində!*
*Hey deyirlər küçə-bucaq, bayırda:*
*"Qssab piyin, keçi canı hayında"!*

*"Yalanların ayaq tutar yeriməz".*
*Amerkanlar buna əsla yol verməz,*
*Azadlıqdan, hürriyyətdən vaz keçməz!*
*Elə et ki, deməsinlər hər yanda:*
*"Qəssab piyin, keçi canı hayında"!*

**Mir Yəhya Yusifli**
**04.03.2025**

## Əyləncə səhifəsi

### Böyük Britaniya kralı DJ oldu



Böyük Britaniya kralı III Çarlz musiqi ilə məşğul oldu. Lent.az-ın xarici mətbuata istinadən xəbərinə görə, krallığın "Instagram" səhifəsində o, özünün "The King's Music Room" adlı podkastının istifadəyə verildiyini elan edib. Bu, kral üçün bir növ musiqi otağıdır, burada o, sevdiyi musiqini pərəstişkarları ilə bölüşəcək. Podkast Britaniya Millətlər birliyinin bayramı olan Birlik ününü qeyd etmək üçün istifadəyə verilir. Hər il martın ikinci bazar ertəsi qeyd olunur.

Pleylist musiqi, ifaçılar və seçilmiş mahnıların nə ilə əlaqəli olduğu haqqında kralın hekayələri və lətifələri ilə kəsişəcək. Martın 10-da Apple Music-də yayımlanır.

Ancaq gəlini Meqan Marklın yemək şousu pis dadına və faydalı məlumatların olmamasına görə tənqid edilib.

### 110 ilin motosikleti rekord məbləğə hərraca çıxarıldı



Nadir model açıq hərracda satılan tarixdə ən bahalı velosiped olub. Belə ki, yüksək qiymətə həm nadirliyi, həm də müxtəlif yarış seriyalarında istifadə olunan sürətli və davamlı motosikletləri ilə məşhur olan Amerika istehsalçısının imici təsir edib. Bundan əlavə, ötən əsrin əvvəllərində oxşar motosikletdə sürət rekordu qoyulub.

Cyclone şirkəti cəmi beş il, 1912-ci ildən 1917-ci ilə qədər mövcud olub. Motosikletlərinin unikallığına baxmayaraq, brend müştərilərə daha ucuz modellər təklif edən digər istehsalçılara rəqabətdə uduzub. Eyni zamanda, Cyclone motosikletləri sürət xüsusiyyətləri və etibarlı dizaynı ilə məşhur olub. Buna görə də motosikletlər süni və çirkli səthlərdə yarışlarda istifadə olunub. 1910-cu illərin əvvəllərində Cyclone motosikletləri innovativ V-Twin mühərrik dizaynına malik idi. Litrli mühərriklərin gücü 45 at gücündə idi. Bunun sayəsində velosipedlər saatda 160 kilometrə qədər sürətlənib. 1914-cü ildə Cyclone bir mil məsafəni 35 saniyəyə qət edərək ABŞ rekordu müəyyənləşdirib.

Mütəxəssislərin qiymətləndirməsinə görə, bu günə qədər 14-dən çox belə motosiklet qalmayıb. Ümumilikdə, beş illik istehsal ərzində marka üç yüzə yaxın motosiklet istehsal edib. Hərracda 1,32 milyon dollara "Cyclone" hərracdan əvvəl tam bərpa olunub.

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

# Tofiq Yaqubluya hökm oxundu

## O, 9 il müddətinə azadlıqdan məhrum edildi

**Milli Şuranın üzvü Tofiq Yaqublu və onunla birgə ittiham olunan jurnalist Elnur Məmmədovun (Vaqifoğlu) cinayət işi üzrə məhkəmənin yekun prosesi keçirilib.**

Belə ki, dünən Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Elnur Nuriyevin sədrliyi ilə keçirilən prosesdə Tofiq Yaqublu son sözlə çıxış edib.

Daha sonra məhkəmədə hökm oxunub.

Hökmə əsasən, Tofiq Yaqublu 9 il, Elnur Məmmədov isə 8 il müddətə azadlıqdan məhrum edilib.

Xatırladaq ki, dövlət ittihamçısı Tofiq Yaqublunun 10 il , Elnur Məmmədovun isə 9 il müddətinə azadlıqdan məhrum edilməsini istəmişdi.

Qeyd edək ki, Tofiq Yaqublu Cinayət Məcəlləsinin 178.3.2-ci (Dələduzluq - külli miqdarda ziyan vurmaqla törədildikdə), 320-ci (Rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə), 320.1-ci (Hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və ya qanunsuz hazırlama, yaxud bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma) və 320.2-ci (Bu Məcəllənin 320.1-ci maddəsində göstərilmiş bilə-bilə saxta sənədlərdən istifadə etmə) maddələri ilə ittiham edilir.

İstintaqın gedişatında Elnur Məmmədov (Vaqifoğlu) təqsirləndirilən şəxs qismində cəlb edilib.

Ona Cinayət Məcəlləsinin 178 (dələduzluq)və 320 (saxta sənəd hazırlama və ondan istifadə) maddələri ilə ittiham verilib. Onun barəsində həbs qətimkan tədbiri seçilib.

# Məşhur iş adamına hökm oxundu...

## Fuad Allahverdiyevin keçmiş həyat yoldaşından şok iddialar



**"AzerTelecom" şirkətinin Direktorlar şurasının sabiq sədri, "Ailə TV", "Caspian Telecom" MMC şirkətlərinin təsisçisi Fuad Allahverdiyevə hökm oxunub.**

Qafqaz.media xəbər verir ki, məşhur iş adamı Cinayət Məcəlləsinin 133 və 151-ci (Əzab vermə və seksual xarakterli hərəkətlərə məcbur etmə) maddələri üzrə ittiham edilərək həbs olunub.

Xəzər Rayon Məhkəməsində keçirilən prosesdə bildirilib ki, iş üzrə zərərçəkmiş şəxs F.Allahverdiyevin keçmiş həyat yoldaşı G. Allahverdiyevadır.

Əvvəllər "Azərreyl" voleybol klubunun üzvü olmuş G. Allahverdiyeva bildirib ki, 2022-ci ilədək evli olduğu Fuad ona qarşı mütəmadi fiziki zorakılıq edib, müxtəlif qadınlarla birgə seksual xarakterli hərəkətlər etməyə vadar edib. O iddia edib ki, keçmiş əri yaşadıqları Şüvəlan qəsəbəsindəki villada çoxsaylı məclislər təşkil edib, həmin məclislərə rəqqasələr və sevgi münasibətində olduğu qadınları da dəvət edib.

F. Allahverdiyev isə G. Allahverdiyevanın əxlaqsız həyat tərzi sürdüyünü, ona böhtan atdığını deyib. Daha sonra keçmiş arvadının ondan 400 min manat oğurladığını iddia edib.

Xəzər Rayon Məhkəməsinin hökmü ilə Fuad Allahverdiyevə 133-cü (əzab vermə) maddəsi üzrə 2 il azadlığın məhdudlaşdırılması cəzası verilib. Məhkəmə ona Cinayət Məcəlləsinin 151-ci (seksual xarakterli hərəkətlərə məcbur etmə) maddəsi üzrə bəraət verib. İş adamının həbsdə saxlanıldığı 10 ay 18 gün müddət cəzadan çıxılıb və onun üzərində qəti olaraq 2 ay 24 gün müddətə azadlığın məhdudlaşdırılması cəzası saxlanılıb.

Üzərinə elektron qolbaq taxılan məşhur biznesmen məhkəmə zalından sərbəst buraxılıb.

# ADP hakimiyyəti beynəlxalq öhdəlikləri yerinə yetirməyə çağırdı

## Partiya ölkəmizin demokratiya göstəricisinə görə, Cənubi Qafqaz da daxil olmaqla, bir çox ölkələrdən geridə qalmasından narahatdır

**Dünən ADP İdarə Heyətinin ölkə və beynəlxalaq aləmdə baş verən ictimai-siyasi proseslərə dair növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, toplantı iştirakçıları dünya ictimaiyyətinin diqqətlə izlədiyi Ukrayna ilə Rusiya arasında davam edən müharibə ilə bağlı fikir mübadiləsi aparıb.**

Partiya rəsmiləri D.Tramp administrasiyasının müharibənin bitməsi, sülh sazişi bağlanması ilə bağlı irəli sürdüyü ağır şərtlərin Ukraynanın ərazi bütövlüyü, suverenliyi ilə uyğun gəlmədiyini, bu şərtlərin Putin Rusiyasının işğal planlarına xidmət etdiyini diqqətə çatdırıb və Avropa İttifaqının ABŞ-dan fərqli olaraq Ukraynaya hər cür hərbi, siyasi dəstək vermək təşəbbüslərini müsbət dəyərləndirib.

ADP müharibənin dayandırılması, sülh sazişi əldə edilməsi, axan günahsız insan qanının qarşısının alınmasının insanlıq üçün nə qədər dəyərli olduğunu qeyd etməklə, Ukraynanın ərazilərinin Rusiya tərəfindən işğal edilməsi, dövlət olaraq onun siyasi müstəqilliyinin aradan qaldırılması kimi ağır şərtlərlə saziş masasına oturdulmasının da bir o qədər təhlükəli olduğunu vurğulayıb və beynəlxalq gücləri ədalətli sülhün təmin edilməsi üçün bütün səylərini birləşdirməyə səsləyib.

İdarə Heyəti son günlər Suriyada vətəndaş müharibəsinə yol açan hərbi qarşıdurmalardan narahat olduğunu bildirib və bu çaxnaşmaların arxasında yenidən şəkillənən Suriyanın parçalanmasında maraqlı olan dövlətlərin durduğunu qeyd edib. Partiya yetkililəri qardaş Türkiyənin Suriyanın bütövlüyünün qorunması, yenidən müstəqil dövlət kimi formalaşması istiqamətində göstərdiyi səyləri yüksək qiymətləndirib və bu ölkədə daxili çaxnaşmaların qarşısının alınması üçün istənilən hərbi müdaxilənin yolverilməz olduğunu diqqətə çatdırıb.

İdarə Heyəti ABŞ yəhudi icmasının 50-dən çox ravinin Avraam razılaşmalarının genişlənməsi, Qazaxıstan, Özbəkistan və Azərbaycanın bu razılaşmalara əlavə olunması, həmçinin Azərbaycana qarşı 907-ci düzəlişin ləğv edilməsini özündə ehtiva edən məzmunla ABŞ prezidenti D.Trampa müraciət ünvanlanmasını yüksək dəyərləndirib və bu faktın İsrail-Azərbaycan əlaqələrində mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

İdarə Heyəti son vaxtlar nüvə arsenalına malik bir sıra dövlətlərin nüvə ritorikasına üstünlük verməsindən, bir-birini siyasi, diplomatik, beynəlxalq hüquq normalarına uyğun danışıqlara dəvət etmək əvəzinə, nüvə təhdidi ilə zora çəkməsindən ciddi narahat olduğunu və bu cür nüvə təhdidlərinin bəşəriyyəti qana sürükləyən bir vasitə olmasından dolayı yolverilməz olduğunu diqqətə çatdırıb.

İdarə Heyəti son vaxtlar Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatların bağlanması, fəaliyyətinin dondurulması istiqamətində hakimiyyətin atdığı addımları məqbul hesab etməyib və bu davranışların Azərbaycanın beynəlxalq əlaqələrinin inkişafına mənfi təsir göstərəcəyini bəyan edib. Partiya yetkililəri ölkəmizin beynəlxalq əlaqələrində müsbət yer alan təşkilatların fəaliyyətini durdurmaqdansa, onların fəaliyyəti üzərində nəzarət mexanizmlərini gücləndirməyin faydalı olduğunu bildirib.

İdarə Heyəti "Economist Inteligence Unit" beynəlxalq təşkilatının apardığı sorğularda ölkəmizin demokratiya göstəricisinə görə, Cənubi Qafqaz da daxil olmaqla, bir çox ölkələrdən geridə qalması faktından narahat olduğunu bildirib və hakimiyyəti ölkəmizdə demokratiyanın, söz, mətbuat, sərbəst toplaşamaq, insan hüquq və azadlıqlarının qorunması, müasir dövrün tələblərinə uyğun inkişaf etdirilməsi üçün ciddi addımlar atmağa və bu sahələr üzrə üzərinə düşən beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirməyə çağırıb.

İdarə Heyəti Türkiyə və Azərbaycan prezidentlərinin iştirakı ilə İğdır-Naxçıvan qaz kəmərinin açılışının edilməsini ölkələrimiz arasında dərin siyasi, iqtisadi, mənəvi bağlılıqların yüksək təzahürü kimi dəyərləndirib və bu kəmərin işə düşməsini uzun müddət blokadadan əziyyət çəkən, məlum səbəblərə görə Azərbaycanın əsas hissəsindən aralı düşən Naxçıvanın fasiləsiz olaraq qazla təmin edilməsi, digər qonşu İranın sıxıntılı asılılığından qurtulması üçün önəm kəsb etməsini diqqətə çatdırıb.

**Hazırladı: KƏNAN**

# Sahil Babayev dəyişikliyə başladı

## Maliyyə Nazirliyi Aparatının rəhbəri işdən çıxarıldı



**Maliyyə Nazirliyi Aparatının rəhbəri Cavanşir Yusifov vəzifəsindən azad edilib. Hurriyyet.az xəbər verir ki, bu barədə yeni maliyyə naziri Sahil Babayev Əmr imzalayıb.**

Maliyyə Nazirliyindən saytımıza xəbəri təsdiqləyiblər. Bildirilib ki, Natiq Həsənov Maliyyə Nazirliyinin yeni Aparatı rəhbəri təyin edilib.

O, 2018-ci ildən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyəti sədrinin birinci müavini vəzifələrində işləyib.

Qeyd edək ki, Cavanşir Yusifov Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusibovun qardaşıdır.

# Sabiq millət vəkili rəsmi qurumları hədəf aldı

## Nəsib Nəsibli: "Sərhəddən bu qədər narkotiki birtərəfli keçirmək mümkün deyil"

**Son günlərdə İran ətrafında halqa daralır. Rəsmi Tehran Türkiyəyə açıq-aşkar meydan oxuyur. Qardaş ölkənin geosiyasi təsir dairəsinin genişlənməsini həzm edə bilmir. Molla rejimi bizi də Türkiyə ilə gördüyü eyni bucaqdan gözdən keçirir, Güneyin ayaqlanmasını "beşikdəcə boğmağa çalışır". Ən kəskin silahı isə narkotikdir. İran illərdir bu silahdan sərrastlıqla yararlanır. Həm də neftdən qazandığından qat-qat artığını əldə edir. Yenə də bizə qarşı nə qəzəbi bitir, nə hiyləsi durur, nə "narkotik müharibəsi" ləngiyir. 1992-94-cü illərdə Azərbaycanın İrandakı səfiri vəzifəsində çalışmış, sabiq millət vəkili, professor Nəsib Nəsibli ilə söhbətimiz də məhz bu mövzu ətrafında oldu.**

### "İrandan külli miqdarda narkotik gəlirsə, deməli, bizim əlaqədar təşkilatlarımız pis işləyir"

***- Nəsib bəy, Statistika Komitəsinin verdiyi məlumata görə, Azərbaycana gələn narkotikin 95 faizi İrandan "axın edir". Demək olar ki, günaşırı mediada "naməlum iranlı"dan narkotik alan kuyerlərin ifadələrini eşidirik. Siz 92-94-cü illərdə Azərbaycanın İranda səfiri olmusunuz. Bu ölkədən Azərbaycana narkotik axını əvvəl də var idi, yoxsa bu durum son illərə təsadüf edir?***

- Mən də eşitmişdim bunu. Rəsmi orqanın deməsi çox maraqlıdır. 1992-94-cü illərdə elə bir problemimiz yox idi. İranla sərhədlər, sərhəddə rejim məsələsi tam aydınlığı ilə ortada deyildi. Ümumiyyətlə, sistem qurulmadığından, gündəmdə deyildi. Sonra məsələ gündəmə gəldi, müzakirə olundu. İranla Azərbaycan arasında müzakirələrdə həmişə yer aldığı bilinən bir məsələdir. Son illərdə bunun çox qorxulu bir vəziyyət aldığı mətbuatdan, açıq qaynaqlardan bilinən şeydir. İfadə etdiyiniz 95 faiz məsələsini mən bir neçə ildir eşidirəm. Bu, həqiqətən də Azərbaycanın ən önəmli güvənlik məsələlərindən biridir. Mənim düşüncəmə görə, bu, Azərbaycan iqtidarının diqqət verə biləcəyi ən önəmli məsələlərdən biridir. Burada çox ciddi bir məsələ də var. Əgər İrandan böyük, külli miqdarda narkotik maddələr gəlirsə, deməli, bizim əlaqədar təşkilatlarımız pis işləyir. Və yaxud da bu prosesdə iştirak edir. Mən bu haqda bir konfransda da açıq-açığına demişdim və bundan çox da narahat olmuşdular. Yəni necə olur ki, quru sərhədləri bağlıdır, amma narkotik maddələr bu qədər açıq şəkildə gəlir? Hərdənbir televiziyada eşidirik, 3 klioqram, 5 kiloqram tuturlar, İran vətəndaşıdır nədir... Amma külli miqdarda gəlir. Külli miqdarda - elə bir trafik varsa, demək, bunun bir başı da bizim tərəfdir. Bizim əlaqədar təşkilatlarımızdır.



### "Necə olur ki, quru sərhədlər bağlıdır, amma Azərbaycana narkotik maddələr bu qədər açıq şəkildə gəlir?!"

### "Azərbaycan hökuməti ölkəyə bu qədər narkotikin necə keçirilməsini çox ciddi şəkildə düşünməlidir"

***- Belə fikirlər də var ki, 44 günlük müharibədə ermənilərin məğlubiyyəti İranın narkotik marşrutunu kəsdiyi üçün, həmin vaxtdan etibarən ölkəmizə "narkotik savaşı" elan edib. Bu haqda nə deyə bilərsiniz?***

- İran tərəfində ən azı təbliğat səviyyəsində bu məsələ Qərbə qarşı mübarizənin bir istiqamətidir. Belə bir fikir var. Yəni İranla, yaxud İran vasitəsilə Qərbə göndərilən narkotik maddələr elə mübarizə vasitəsidir. Yəni onlarda insani yanaşma yoxdur. Ən azından bunu təbliğat səviyyəsində görə bilərik. O da davam edir.

***- Yəni Tehran qərbli rəqiblərini narkotik bataqlığına salmağı mübarizə kimi görür...***

- Bəli.

### "İran Azərbaycanda narkotik maddələrin yayılmasını mübarizə istiqamətlərindən biri sayır"

***- Bizi də o cümlədən...***

- Bəli, bəli. O cümlədən Azərbaycan Respublikasında da narkotik maddələrin yayılmasını özünün mübarizəsinin istiqamətlərindən biri sayır.

***- Sizcə, İran məqsədinə çatmış hesab oluna bilərmi? O baxımdan ki, artıq ölkə narkotik bataqlığına yuvarlanıb...***

- Hər halda Azərbaycan üçün bir problem yaratmağı məqsəd qoyublarsa, demək ki, məqsədlərinə çatıblar. Və bunu da Azərbaycan tərəfi dolayı yollarla rəsmi şəxslərlə deyirsə ki, belə bir təhlükə var, o zaman məqsədlərinə çatıblar.

***- Əsasən də 2020-ci ildən sonra ölkəmizdə narkomaniyaya qarşı mübarizə kampaniyası aparılsa da, bir nəfər də olsun vəzifəli şəxs həbs olunmayıb. Sizcə, həqiqətənmi Azərbaycanda narkotik biznesi İrandan idarə olunur, bizim məmurların, vəzifəli şəxslərin əli yoxdur?***

- Kimin əli var, kimin ayağı var, deyə bilməyəcəyəm. Bu, mənim vəzifəm deyil. Amma həqiqətən də burada çox sadə bir məntiq var. Əgər külli miqdarda narkotik keçirilirsə, təbii ki, sərhəddən bu qədər narkotiki birtərəfli keçirmək mümkün deyil. Dünyanın heç bir yerində elə şey yoxdur. Azərbaycan hökuməti də bunu çox ciddi şəkildə düşünməlidir.

**Hazırladı: İ.SABİRQIZI**

# "Bunun özü uğur hekayəsi deyil, bəs nədir?!"

## Hikmət Babaoğlu: "Bu, narkotiklə mübarizədə Azərbaycan dövləti adına zəfər tarixidir..."

**Milli Məclisin İnsan hüquqları komitəsinin iclasında "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin 2024-cü il üzrə məruzəsi"nin müzakirəsində millət vəkili Hikmət Babaoğlu qonşu ölkənin Azərbaycana qarşı "tiryək müharibəsi"ndən söhbət açıb. Elə onunla müsahibəmizdə bu haqda danışdıq.**

***- Milli Məclisin İnsan hüquqları komitəsinin 3 martda keçirilən iclasında bildirdiniz ki, qonşu ölkə Azərbaycana qarşı tiryək müharibəsi aparır. Şübhəsiz, burada İranı nəzərdə tutmusunuz. Çünki ölkəmizə narkotik vasitələrin 95 faizi məhz bu ölkədən daxil olur. Əgər belədirsə, hesab edirsiniz ki, hazırda molla rejimi qarşısında məğlub durumdayıq? Çünki ölkəmizdə narkomaniya çox geniş şəkildə yayılıb...***

- Niyə məğlub durumda oluruq ki?! Bütün dünyada narkotik həm ticarət vasitəsi, həm kapital yığımı vasitəsi, həm də səssiz müharibə vasitəsidir. Bütün Avropada, Latın Amerikası ölkələrində - dünyanın hər yerində "narkotik müharibələri" aparılır. O cümlədən Azərbaycana qarşı da belə bir müharibə aparılır, səssiz müharibə kompanentlərindən biri kimi. Və Azərbaycan dövləti də, Azərbaycanın müvafiq hüquq mühafizə orqanları da çox səmərəli, çox effektiv mübarizə aparırlar. Biz az qala hər gün müxtəlif informasiya resurslarında, televiziyalarda Dövlət Təhlükəsizlik Xidmətinin, Daxili İşlər Nazirliyinin həyata keçirdiyi əməliyyatlar barədə məlumat eşidirik. Və yaxud bunların ikisinin birgə keçirdiyi əməliyyatlar barədə məlumatlar eşidirik. Tonlarla narkotikin dövriyyədən çıxarılmasına şahidlik edirik. Məncə, bu, narkotiklə mübarizədə Azərbaycan dövləti adına bir qalibiyyət tarixi, bir zəfər tarixidir.

***- Sizin də qeyd etdiyiniz kimi, İran narkotik silahı ilə bizə hücum edir...***

- Mən "qonşu ölkə" demişəm.

***- Tehran rejiminin Azərbaycanın uğurlarından əndişəyə düşdüyü yeni deyil. Bunun bariz nümunəsi kimi, uzun illərdir Ermənistana dəstək verdiyini, bu ölkəni silahlandırdığını qeyd edə bilərik. Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının hesabatına əsasən deyə bilərik ki, İrandan daxil olan narkotiklərin cəmi 16 faizi bu və ya digər şəkildə aşkar olunur, yəni 84 faiz öz alıcısına çatır. Siz də ölkə olaraq necə yüksək səviyyədə mübarizə apardığımızı qeyd etdiniz. Bütün aparılan mübarizəyə rəğmən, nəyə görə, ölkəmizə qarşı "tiryək müharibəsi" aparan bu ölkənin qarşısını ala bilmirik?***



- Dediyiniz statistikanı yaxşı olar ki, adını çəkdiyiniz komissiyaya ünvanlayasınız. Mənim bu barədə məlumatım yoxdur. Mən sadəcə Azərbaycanın müvafiq qurumlarının narkotikə qarşı mübarizədə çox böyük məsafə qət etdiyini və çox uğurlu əməliyyatlar keçirdiyinə şahidlik edirəm, bilirəm. Maarifçilik də bu mübarizənin mühüm bir hissəsidir. Sizə də bu sahədəki fəaliyyətinizdə uğurlar arzulayıram. Əlbəttə, yenə deyirəm, biz bu gün qonşu ölkələrlə sərhədlərimiz açıldıqdan sonra, son illərdə heç olmadığı qədər narkotiklərə, narkomaniyanın yayılmasına qarşı mübarizədə çox böyük uğurlar əldə etmişik və genefondumuzu qoruya bilmişik. Bunun üçün də mən müvafiq qurumlara, Daxili İşlər Nazirliyinə, Dövlət Təhlükəsizlik Xidmətinə təşəkkür edirəm. Ayrıca sizə təşəkkür edirəm ki, millətimizin genefondu üçün zərərli olan, bu qədər faciəli nəticələrə gətirən bir halla bağlı maarifləndirmə funksiyası həyata keçirirsiniz. Və onların qarşısının alınması üçün heç şübhəsiz ki, ən vacib məsələlərdən biri maarifləndirmədir.

***- Çıxışınızda maraqlı bir fikir də qeyd etmisiniz ki, "məlum qonşu ölkə yerdən, göydən, dənizdən narkotiki başımıza yağdırır". İndiki texnologiya əsrində müvafiq qurumlarımızın, sizin də qeyd etdiyiniz kimi, bu qədər sərhədlərimizi qorumasına, keçirilən əməliyyatlara rəğmən, necə olur narkotik yenə də gəlir?***

- Artıq hər dəfə bu prosesin qarşısı alındıqca yeni vasitələrin tapıldığına şahidlik edirik. Məsələn, sahibsiz dəniz vasitələri ilə narkotik ötürülür. Təsəvvür edirsinizmi, bu narkotikin daşınmasında tamamilə yeni bir vasitədir. Bu günlərdə mən eşitdim, Daxili İşlər Nazirliyi qarşısını almışdı. Baxın, dronlar vasitəsilə ərazimizə narkotik ötürülür. Görün bu nəyi göstərir... Yəni bu halların aşkar edilməsi nəyi göstərir - bizim zəfərimiz haradadır. Böyük dəniz sərhədlərindən gələn hər hansı bir narkotik vasitəsini biz aşkar edib məhv edə bilirik və İran-Azərbaycan sərhədi çox uzun sərhəddir. Oradan dronlarla ötürülən narkotiklər qısa məsafəli ölçüdə və qeyri-standart yüksəkliklə göndərilir. Amma yenə də müvafiq qurumlarımızın, Azərbaycan sərhədçilərinin bundan xəbəri olur, bunu aşkar edə bilirlər. Görürsünüzmü, yeni bunun özü uğur hekayəsi deyil, bəs nədir?! Ona görə də, mən düşünürəm ki, yeni belə metodlar olduqca Azərbacan da bunları aşkar edəcək və qarşısını alacaqdır.

**İ.SABİRQIZI**

Tənqidi məqalə yazmağı xoşlamıram... Amma hərdən elə hadisələrlə rastlaşırsan ki, matın-qutun quruyur, istəyirsən var səsinlə çığırıb-bağırasan, söyəsən, təhqir eləyəsən...

# Sıfırın dəyəri...

## Və ya Mingəçevir qaranlıqları



Eldəniz QULİYEV

Sahidi olduğum iki hadisə haqqında söhbət açacam. Məzmunu və fabulası fərqli olsa da, mahiyyətcə eynidilər.

Beləliklə...

Birinci ƏHVALAT. Vaqe olur Mingəçevir şəhərində.

...Hələ o vaxt VƏTƏN adlı internet televiziyamız fəaliyyətini dayandırmamışdı. Çoxlu şikayətlər alırdıq. Belə informasiya daxil oldu ki, Mingəçevir şəhərində danabaş, daha dəqiqi, uzunqulaq bir sahibkar (böyük restoran və şadlıq sarayı sahibi) elə bir qələt, elə bir əbləhlik eləyib ki, sadə məntiqlə bunu başa düşmək, həzm eləmək qeyri-mümkündür.

Deməli, həmin o vələdüzna sahibkar şəhid ailəsini və şəhid ruhunu özünəməxsus tərzdə alçaldıb, təhqir edib...

... Şəhid atası oğlunun xatirəsini əbədiləşdirmək məqsədi ilə, yol kənarında kiçik bir sahədə, qabarlı əlləriylə ŞƏHİD BULAĞI abidəsi inşa edir. Bununla o, 44 günlük ZƏFƏR müharibəsində qəhrəmancasına vuruşub şəhid olmuş nakam oğlunun xatirəsini əbədiləşdirmək, övlad dərdindindən alışıb-yanan ürəyini, az da olsa, ovutmaq istəyib...

BULAĞın baş tərəfinə Azərbaycan bayrağı və oğlunun şəkilini vurur. Ətrafında güllər-çiçəklər əkir; hər səhər də gəlib abidəyə qulluq edir...



Kiçik bulağın qonşuluğunda isə, yuxarıda qeyd etdiyim sahibkarın böyük bir restoran-şadlıq sarayı fəaliyyət göstərir...

Günlərin bir günü həmin sahibkarın nəfsi bütün insani, mənəvi, əxlaqi, humanist və digər dəyərlərə güc gəlir... Və o, ŞƏHİD abidəsini "udub", öz restoranının ərazisinə qatmaq eşqinə düşür. Bunun üçün, əlbəttə ki, ilk növbədə abidəni dağıdıb məhv eləmək lazımdır. Bu çirkin komformist niyyətini həyata keçmək üçün o, heç şeytanın da ağlına gəlməyən tükürpədici və çox alçaq bir plan qurur: gecə yarısı iki uzunqulağ gətirib, bulağın düz mərkəzində bağlayır.(???!!!) Uzunqulaq da uzunqulaqdır, - onunçün örkəninin hara bağlanmasının nə fərqi... Səhərə qədər ŞƏHİDİN xatirəsi üçün əkilmiş gül-çiçəyi, otları-yaşıllığı ye ki, yeyəsən, - yemədiyini isə əzib zay edir...

Bu hadisədən xəbər tutanda, sözün doğrusu inanmadım. Heç inanılası da deyil. Yəni şəhidin müqəddəs ruhuna, oğul dərdindən həyatı alt-üst olmuş ahıl bir şəhid atasına bunca hörmətsizlik, bunca əclaflıq nümayiş etdirmək hansı qudurğan məxluqun əməli olar?! Ümumiyyətlə, görən, belə bir şey eləmək mümkündürmü?!

Tənbəllk eləmədim, durub birbaşa Mingəçevirə yollandım. Kaş ki, heç getməyəydim... Məlum oldu ki, hadisə eynən sizlərə nəql etdyim kimidir...

Şəhid Bulağını da, şəhidin atasını da ziyarət etdim. Atanın göz yaşları ürəyimi göynətdi...

Qoşuluqdakı bərkgedən restoranın "xozeyni" isə ilim-ilim itdi...

Deyirəm, yaxşı ki, o vaxt bu hadisədən Mingəçevir İcra Hakimiyyəti xəbərdar oldu və heç gözləmədiyim halda, çox tez bir zamanda məsələ həllini tapdı. Çox sevindim. Deməyəsən, icra strukturları lazım gələndə operativ, vicdanlı və ədalətli ola bilirmişlər... Nəfsinin köləsinə çevrilmiş həmin sahibkar, necə lazımdırsa, layiqli cavabını aldı - onun pul qoxusundan başqa heç bir iy bulməyən dimdik burnu ovuşdurulub yastılandırıldı, üstəlik, uzun, çoox uzun şələ qulaqları yetərincə burulub bir az da uzandı...

Hə, indi keçək ikinci hadisəyə. Bu əttökən hadisə yenə də Mingəçevir şəhərində vaqe olur və deyilənə görə, günü bu gün də davam etməkdədir... Amma bu əhvalatı nəql etməzdən əvvəl ərz eləyim ki, insanlar da sıfır kimidir - qarşısına rəqəm yazılmasa heç kim və heç nə olmaqdan yaxa qurtara bilməz. Onlar, bir qayda olaraq, həmişə nəfərlə yox, dənəylə sayılacaqlar. Yəni ömür boyu mənəvi aləmə və əxlaq normalarına çəp baxan, empatiya hissindən bixəbər yaşayan, hər hansı bir dəyər, ya mental keyfiyyət daşıyıcısına çevrilməyən belə ikiayaqlılar, mahiyyətcə dördayaqlılardan fərqlənməzlər!..



Təəssüf ki, gündəlik həyatda belə "SIFIRLAR" itinə tök qədərdi...

Yeri gəlmişkən, qeyd edim ki, mənəviyyat anlamının dəqiq sərhədi olmur. O əxlaqın bütün spektrini,



insanın ruhi zənginliyini və xeyirxah xüsusiyyətlərini, o cümlədən, insanlar arasında yazılmamış səmimi ünsiyyət qaydalarını əhatə edir. Mənəviyyatsızlıq və qeyri-etik yaşayış tərzi isə, nə yazıq ki, bu qaydaların tam əksini ehtiva edir...

Birinci hadisədən sonra Mingəçevirin işıqları mənimçün bir qədər öləzidi, qaraldı...

Əlqərəz, keçid alaq ikinci əhvalata.

Deməli, şanlı ordumuz Qarabağda yağı düşmənlə ölüm-dirim savaşı apardığı bir zamanda, sən demə, elə fürsətcil və elə əliəyri "sıfırlar" olub ki, müstəsna olaraq ancaq öz şəxsi xeyrləri üçün vuruşublar - qazanmaq, çırpışdırmaq, qamarlamaq, nəyin bahasına olursa-olsun varlanmaq, zəngin olmaq istəy ilə alışıb-yanıblar. Sən demə, bizlər döğma ərazılərimizi, əzəli torpaqlarımızı düşmən tapdağından xilas edəndə, bunlar arxa cəbhədə parça-parça torpaq sahələri satıb, xımır-xımır ərazi alveri edirlərmiş...

Belə təpəgözlərdən birisi şəhərin keçmiş Bələdiyyə sədri vəzifəsində işləyirmiş və "Araz aşığımdan, Kür topuğumdandı!", - deyib, onlarla ticarət, iaşə obyektlərini, həyətyanı torpaq sahələrini və sairəni dədə malı kimi satıb, özü üçün kef eləyirmiş. Əslində və səd heyif ki, burada qeyri-adi bir şey yoxdur, - yəni bəzi Bələdiyyə sədrlərinin bu sayaq alverə qurşanması və dərəbəyliyə baş vurmasını bilməyən yoxdur. Ancaq haqqında söhbət açılan zat orjinal üsuldan istifadə edirmiş. Sənəd-sünəd düzəldəndə də, alış-veriş edəndə də yanında pəzəvəng bir psevdo-cangüdən gəzdirirmiş. Kimlə nə söhbət edirsə, nə sövdələşmə yapırsa, yanındakı buyruqqulu aparılan danışıqların səs yazısını yazırmış. Əlbəttə, məxfi şəkildə. Özü də, sədr söhbəti elə qururmuş ki, tərəf müqabili mövcud hakimiyyəti tənqid eləsin, aşağılasın, hətta mümkünsə, söysün, təhqirdən-zaddan eləsin... Lap keçən əsrin otuzuncu illərində olduğu kimi...(?!)

Təxminən belə:

- Örüş yerləri yaman quruyub... Nağayracıyıq... Belə getsə, vallah, o bircə inəyimiz də süddən kəsiləcək, uşaqlar acınnan qırılacaq...



- Nə?! Nə dedin?.. Nə çərənnəyirsən, a kişi?! Sən yoldaş Stalinin siyasətini bəyənmirsən?! Vəssalam. Gecəylə gəlib yazıq inək yiyəsini gedər-gəlməzə aparırdılar!..

...Nə vaxtsa, nə üçünsə satıcı-alıcı arasında bir problem yaranarsa(və o problemlər indiyəcən də yaranır), səs yazısı kozur karta çevrilib "şappadan" ortaya qoyulur və təbii ki, əsasən şantaj vasitəsi kimi istifadə edilir...

Gülməli, səfeh və çox sadəlövh görünsə də, bu sayaq hiyləgər "əməliyyat" planları müəyyən nəticə verirmiş. Nəticə isə, şübhəsiz ki, küllü miqdarda rüşvət, qazanc, gəlir, pul deməkdir!..

Ən pisi budur ki, deyilənə görə, keçmiş Bələdiyyə sədri hələ də dövlətin mülkiyyətindən, xalqın ruzisindən çırpışdırıb qohum-əqrabasının adına özəlləşdirdiyi torpaq sahaləri və obyektləri satmaqla baş girləyir... Quyruq kimi dalına salıb gəzdirdiyi (və olsa-olsa, sıfırdan sonra yazılan rəqəm kimi mənasız funksiyalı) "səs operatoru" da öz ampluasında - oğrun-oğrun, gizlin-gizlin onun-bunun səsini yazmaqla məşğuldur!..

Diqqət yetirdinizsə, mən ad çəkmədim. Hələlik çəkmədim. Ona görə yox ki, kimdənsə, ya nədənsə çəkinəcəyim var. Yox, sadəcə, düşünürəm ki, Mingəçevir İcra Hakimiyyəti söhbətin kimdən və kimlərdən getdiyini bilir. Və onu da bilir ki, bunu hamı bilir. Eləcə də, hamıya əyandır ki, nə vaxtsa saxta Bələdiyyə qərarları ilə dövlətin mülkiyyətinə təcavüz edən SIFIR müəllim hal-hazırda hansı obyektlərini, iaşə "toçkaları"nı, torpaq sahələrini satışa çıxarıb və o müəllim, ya cənab SIFIR indiyəcən hansı qanunsuzluqlar, hansı cinayət əmələri törədib...

Bəli, zaman-zaman ayrı-ayrı məhkəmə instansiyaları, o cümlədən Korrupsiya məhkəməsi, keçmiş Bələdiyyə sədrinin əməllərində cinayyət tərkibi olduğu qənaətinə gəlib və haqqında müxtəlif qərarlar çıxarıblar... Amma qəhrəmanımız hər dəfə sürüşüb aradan çıxmağın yolunu tapıb... "Uşağda fərasətə bax ey!"

Ümid edirəm, hətta inanıram ki, Mingəçevir səhər İcra Hakimiyyəti "Məhkəmələrə "görüm-baxım" eləmişəm, işlərimi də, necə lazımdırsa qurub-qoşmuşam, bir köpəyoğlu mənə gözün üstə qaşın var deyə bilməz!", - deyibən, xozu-xozu gəzən "Sıfır" müəllimin "xodunu" almaqda müvafiq tədbirlər görəcək.

Güman ki, şəhər sakinlərinin əksəriyyəti SIFIR müəllimin haram yollarla "qazandığı" və əlbəttə də ki, milyonlarla dəyərində olan cah-cəlallı mülklərini, ən prestijli yerlərdəki yüz-yüz minlik torpaq sahələrini görür, anlayırlar. Ancaq, əlbəttə ki, qəbul etmirlər, qəbul edə bilmirlər!.. Heç kim çörəyi qulağına yemir axı!.. Anlayanlar və bu kimi maxinasiyaların dövlətçiliyimizə başucalığı gətirmədiyindən narahat olanlar, şübhəsiz ki, yetərincədir. Çünki artıq hamı başa düşür ki, rüşvətxorluq cinayət əməlindən daha çox xəstəlikdir; bu ağır mərəzin simtopları özünü müxtəlif çür biruzə versə də, kökü və səbəbi eyni mikrobdan qaynaqlanır - insan nəfsindən!..

Son olaraq qeyd etməliyəm və yəqin, dəyərli oxucular da razılaşarlar ki, nəyin bahasına olursa olsun, rüşvətlə qidalanan və az qala vampirə çevrilən məmurların mənəvi deqradasiyaya uğramasının qarşısı alınmalıdır. Bunu hətta ölkə Prezidenti də öz çıxışlarında dəfələrlə vurğulayıb.

Özgə çarə yoxdur. Əks-təqdirdə, rüşvət bəlası, eynən xərçəng xəstəliyi kimi, artan xətlə inkişaf edib, onsuz da ağır olan həyatımızın bütün sferalarına sirayət edəcək...

Bəli, belə hallardan mütləq sivrilb qurtulmalıyıq - bu, birmənalıdır; çünki hakimiyyət piramidasının əsasını təşkil edən bəzi məkrli-nəfsli məmurların düçar olduğu merkantilizm (mənfəətpərəstlik, pulgirlik) son nəticədə ölkəmizi böyük problemlər burulğanına salacaq...

Təəssüf edirəm ki, bu ikinci hadisədən sonra nur şəhəri Mingəçevirin işıqları nəzərimdə daha artıq qaranlığa qərq oldu...

**P.S. Vətənimizi, xalqımızı, dövlətimizi sevək, qoruyaq. Bu, bizim taleyimiz, ALIN YAZIMIZDI!**



# Sumqayıt Bələdiyyəsinin şok qanunsuzluğu

## Vətəndaşlara məxsus torpaq sahəsi köhnə tarixlə "Skan" MMC-yə icarəyə verilib; ikinci isə "şəhid anası"nın adından istifadə edir...

**Sumqayıt şəhər sakinləri Sədiyev Şahin Zeynal oğlu, Baxşəliyev Əkbər Əbdüləli oğlu və Gülməmmədov Sərxan Rizvan oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Sumqayıt şəhər Bələdiyyəsi və Sumqayıt şəhəri, məhəllə 5, Nizami küçəsi 16-də yerləşən "Skan" MMC barəsində şikayət edən sakinlərin məktubunu olduğu kimi dərc edirik:**

"2013-cü ildə Sumqayıt Bələdiyyəsi tərəfindən mən Baxşəliyev Əkbər Əbdüləli oğluna və Gülməmmədov Sərxan Rizvan oğluna sotu 1000 manata olmaqla, hər birimizə 4 sot torpaq sahəsi verilmişdir. Bələdiyyənin iştirakı ilə işıq dirəyinin yanından başlayaraq, torpaq sahəmiz ölçülərək, bizə təqdim edilmişdir. Həmin sahə 3 yerə bölünmüşdür. Bizi ikimiz və digər qonşu.

Bundan sonra sahəmiz hamar olmadığından və bir tərəfi gölə düşdüyündən, biz ora 50 yük maşını torpaq tökərək hamarlatdıq. Yer düzələndən sonra hasar çəkilməsi üçün traktor gətirdərək yer qazdırıb hasar çəkdirdik. Bu işlər üçün ümumilikdə 5 000 manat xərc çəkdik. Maddi imkanımız zəif olduğundan ev tikdirə bilmədik. Torpağa dair sənədlərlə maraqlandıqda isə, Bələdiyyə tərəfindən bizə bir müddət gözləmək məsləhət görülürdü. Bələdiyyə vergiləri ilə bağlı bizə tədiyyə bildirişlər təqdim edilirdi ki, vergiləri də vaxtında ödəmişik.




Qeyd olunan torpaq sahəsindən təsərüffat məqsədi ilə istifadə edərək yararlanmışıq. Bu il, yanvar ayının 16-da isə bizə məlum oldu ki, Sumqayıt şəhəri, 76-cı məhəllədə yerləşən, bizim sahiblik və istifadəmizdə olan torpaq sahəsinə müdaxilə olunaraq hasarlarımız sökülmüş, daşların bir hissəsi əraziyə səpələnmiş, bir hissəsi gölə tökülmüş, bir hissəsi də torpaq altında qalmışdır. Üstəlik, sahəyə daş və torpaq tökülərək, sahələrimiz bərbad hala salınmışdır.

Araşdırma zamanı məlum oldu ki, bu qanunsuz hərəkətlər Sumqayıt Bələdiyyəsi ilə "Skan" MMC tərəfindən törədilmişdir. Tərəfimizdən mümkün olan müqavimət göstərilmiş və Azərbaycan Respublikası Baş Prokurorluğunun, Daxili İşlər Nazirliyinin və Ombudsman Apartının qaynar xətlərinə qanunsuzluq barədə məlumat verildi. Bundan əlavə, Sumqayıt İnzibati Məhkəməsinə ( ayrılmış torpaq sahəsinə müdaxilənin dayandırılması və dəymiş ziyanın ödənməsinə dair) iddia ərizəsi ilə müraciət olundu.

Söküntü və tikinti işlərini aparan "Skan" MMC-nin nümayəndəsi tərəfindən bizə məxsus olan ərazinin Sumqayıt Bələdiyyəsi tərəfindən onlara verildiyi bildirilsə də, hər hansı bir sənəd təqdim edilməmişdir. Qeyd olunan şəxs havadarlarının məsləhəti ilə çox kobud və təhqiramiz ifadələrlə üstumüzə cumaraq, bizi davaya cəlb edib, polis vasitəsi ilə "aradan götürməyə" calışdı. Planının baş tutmadığını və bizim qanuni şəkildə mübarizə apardığımızı gördukdə isə, jantaşa keçərək, guya bizim onun təhqir etdiyimizlə bağlı polisə müraciət etdi.

12 fevral tarixində Sumqayıt şəhər 5-ci Polis bölməsinə dəvət olunduq. Bölmə rəisinin qəbulunda araşdırma aparılarkən məlum oldu ki, bizim sahiblik və istifadəmizdə olan Sumqayıt şəhəri, 76-cı məhəllə ərazisində yerləşən 3500 kv.m ərazi Sumqayıt şəhər Bələdiyyəsi tərəfindən tam qanunsuz olaraq, keçmiş tarixlə Quliyeva Nazilə İsa qızına icarəyə verilmişdir. Araşdırmanın nəticəsi olaraq belə qərar alındı ki, mübahisə ilə bağlı tərəfimizdən Sumqayıt İnzibati Məhkəməsinə müraciət olunduğu və münaqişənin böyüməməsi üçün hər iki tərəf işin icrasını dayandırmalıdır. Ümumi razılığa gələrək işin dayandıqılmasına baxmayaraq, 05 mart tarixində "Skan" MMC-nin nümyəndəsi tərəfindən əraziyə tikinti materialları tökülərək, hasarlama işlərinə başlanıldı. Biz əraziyə gəldikdə əvvəlkindən daha pis formada, aqressiv hücumlara məruz qaldıq. Belə ki, xüsusi qaydada öyrədilərək oraya göndərilmiş, şəxsi kefiyyətləri müsbət olmayan və özlərini "qazi" və "veteran" kimi təqdim edən bir neçə şəxs bizi hədələyərək, təhqir etməklə ərazidən kanarlaşdırdılar.

Yenidən Sumqayıt Şəhər 5-ci Polis bölməsinə müraciət etdikdə, bizə bildirdilər ki, "araşdırmaya dair materiallar Sumqayıt Şəhər Polis İdarəsinə göndərilib və bu səbəbdən də biz işəmüdaxil edə bilməyik". Qarşı tərəf də bundan istifadə edərək, yenidən tikinti işinin davam etdirməyə başladı.

Yenidən Daxili İşlər Nazirliyinin qaynar xəttinə müraciət edərək işin dayandırılmasını xahiş etsək də, buna nail ola bilmədik. Sonra vəkilimiz vasitəsi ilə Sumqayıt Şəhər Polis İdarəsinə yaxınlaşdıq. Araşdırma materialları ilə tanış olduqda bizə məlum oldu ki, bizim sahiblik və istifadəmizdə olan Sumqayıt şəhəri, 76-cı məhəllə ərazisində yerləşən 3500 kv.m ərazi Sumqayıt şəhər Bələdiyyəsi tərəfindən Quliyeva Nazilə İsa qızına 29.10.2024-cü il tarixli müraciət əsasında icarəyə verilmişdir. Qeyd etdiyimiz kimi, həmin icarə müqaviləsi tam qanunsuz və sənədlərin saxtalaşdırılması ilə verilmişdir. Belə ki, icarə müqaviləsinin təyinatı, müddəti və torpağın koordinatları göstərilmədən verilmişdir. Bununla yanaşı, qeyd olunan icarə müqaviləsi Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən təsdiq edilməmişdir.

Bununla da aydın oldu ki, bir qrup şəxs "vətənə xidmət" adından istifadə edərək, İcra Hakimiyyətinə və Bələdiyyəyə təzyiq etməklə, bizim sahiblik və istifadəmizdə olan torpaq sahəsini əlimizdən almağa çalışır. Bu işdə onların səlahiyyət sahib olan havadarlarının olması şübhəsizdir. Belə ki, bütün dövlət orqalarına müraciətlərimizin olmasına baxmayaraq, işin dayandırılması mükün olmamışdır.



AZƏRBAYCAN RESPUBLİKASI
SUMQAYIT BƏLƏDİYYƏSİ

AZ 5000, Sumqayıt şəhəri
5-ci məhəllə, Nizami küçəsi 16

Tel: 655-77-28
Tel/Faks (018) 655-85-50
Sayt: sumqayit-bl.gov.az
Mail: belediyye.sumqayt@mail.ru

«18» oktyabr 2024-il

№

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 beynəlxalq tədbiri 2024-cü ilin noyabr ayında ölkəmizdə keçiriləcəkdir. COP29 beynəlxalq tədbiri ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "Yaşıl enerji" zonası elan edib və bu istiqamətdə çox mühüm işlərin həyata keçirilməsi başlanılmışdır. Nəzərinizə çatdırırıq ki, bu tədbirinin keçirilməsi ilə əlaqədar ölkəmizə xeyli sayda nümayəndələr, eləcə də xarici dövlətlərin başçıları gələcəkdir. Bu baxımdan Sumqayıt və onun qəsəbələri ərazisində genişmiqyaslı abadlıq-quruculuq, yaşıllaşdırma işlərininin aparılması intensiv surətdə davam etdirilir.

Qeyd edilənləri nəzərə alaraq, Sumqayıt şəhərində həyata keçirilən quruculuq işlərinə yaxından köməklik göstərilməsi məqsədilə 2000 (iki min) manat vəsait ayrılması və həmin vəsaitin bu işləri həyata keçirən aşağıdakı təşkilatın hesabına köçürülməsi Sizdən xahiş olunur.

| | |
|---|---|
| Təşkilatın adı: | Sumqayıt Bələdiyyəsi |
| Təşkilatın VÖEN-i: | 2900379891 |
| Təşkilatın Hesablaşma hesabı: | AZ41İBAZ38090019449618033213 |
| Bankın adı: | ABB Sumqayıt filialı |
| Bankın kodu: | 805658 |
| Bankın VÖEN-i: | 9900001881 |
| Müxbir hesab: | AZ03NABZ01350100000000002944 |
| Bankın SWIFT kodu: | IBAZAZ2X |

Hörmətlə,

Sədr vəzifəsini icra edən ...an Adıgözəlzadə

Azərbaycan Respublikası Sumqayıt şəhəri Sumqayıt Bələdiyyəsi

Bizdə olan məlumata görə, Quliyeva Nazilə İsa qızı özünü "şəhid anası" kimi təqdim etməklə Sumqayıt Bələdiyyəsinin və "Skan" MMC-nin vasitəsi ilə Yaşma və "Yaşıl dairə" deyilən ərazidə vətəndaşlara məxsus torpaq sahələrini zəbt etmişlər. Bununla da qanuni əsaslarla bizim sahiblik və istifadəmizdə olan 3 500 kv.m ərazinin Sumqayıt Şəhər Bələdiyyəsi tərəfindən Quliyeva Nazilə İsa qızına icarəyə verilməsinə dair qərar tam qanunsuz olduğundan, ləğv edilməli və ərazi "qazi" və "veteran" kimi özünü təqdim edən şəxslərdən təmizlənməklə, bizim istifadəmizə verilməsi təmin edilməlidir".

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiyadan: Mövzunu davam etdirəcəyik. Qarşı tərəfin mövqeyini də dərc etməyə hazırıq.**



# ADAU-da baş verən qanunsuzluqların izi ilə

## Tələbələr "Hürriyyət"ə şok faktları açıqladılar...

**Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) bir qrup tələbəsi tərəfindən "Hürriyyət"in redaksiyasına məktub daxil olub. Universitetdə baş verən və "artıq dözülməz həddə çatan" problemlərlə bağlı yazan tələbələrin müraciətini olduğu kimi dərc edirik:**

"Öncə onu qeyd edək ki, bu, yalnız bizim narazılığımız deyil, həmçinin yüzlərlə tələbənin haqsızlığa, ədalətsizliyə qarşı baş qaldıran etirazıdır. Hazırda ADAU-nun vəziyyəti bir universitetin deyil, məhz şəxsi təsərrüfatın dağıdılması səhnəsini xatırladır.

### Təhsil sistemi iflic vəziyyətindədir

Son illər ərzində, xüsusən də rektor Zəfər Qurbanovun dövründə, universitetdə tədrisin keyfiyyəti faktiki olaraq sıfra enib. Sabiq rektor İbrahim Cəfərovun dövrü ilə



müqayisədə təhsil 2-3 dəfə aşağı düşüb, dərslər formal şəkildə keçirilir, tələbələr isə real biliklərdən məhrumdur. Fundamental fənlər bir semestrə sığdırılır, tələbələr fiziki və zehni olaraq yüklənərək, təhsil almaq imkanlarından məhrum edilirlər. Baytarlıq kimi praktiki biliklər tələb edən bir sahədə isə heç bir praktiki məşğələ keçirilmir, laboratoriyalar isə demək olar ki, işləmir. Bu vəziyyət ADAU-nun gələcəyini ciddi şəkildə sual altına alır.

### Universitet təsərrüfatı dağıdılıb, tədrisin əsasını təşkil edən heyvanlar yoxdur

İbrahim Cəfərovun dövründə universitetin təsərrüfatında 60-dan çox iribuynuzlu, 200-dən çox xırdabuynuzlu heyvan var idi. Lakin hazırda yalnız 7-8 iribuynuzlu, 40-45 xırdabuynuzlu heyvan qalıb, digərləri satılıb və vəsait mənimsənilib. Baytarlığın Vivariumuna isə 2 iribuynuzlu və 2 xırdabuynuzlu (qoca, xəstə yararsız) heyvan veriblər. Bu vəziyyət isə tələbələrin praktiki təcrübə əldə etmələrinin qarşısını alır. Baytarlıq fakültəsi tələbələrinin praktiki biliklərdən məhrum olması, Azərbaycanın baytarlıq xidmətinin gələcəyini təhlükə altına alır.



### Kənd Təsərrüfatı Nazirliyi passivdir, şikayətlərə heç bir cavab verilmir

Tələbələr dəfələrlə universitet rəhbərliyinə müraciət etsələr də, heç bir nəticə əldə olunmayıb. Kənd Təsərrüfatı Nazirliyinin qaynar xəttinə dəfələrlə məlumat vermişik, ərizə yazaraq müraciət etmişik, amma heç bir müvafiq tədbir görülmür. Nazirlik bizə boş vədlər verməkdənsə, konkret addımlar atmır. Nazirlikdən gələn cavablar ya saxtalaşdırılır, ya da məsələnin miqyasını kiçiltmək məqsədilə yanlış məlumatlar təqdim edilir. Şikayət edən tələbələrə təzyiq edilir və şikayətlərin rəsmi şəkildə irəliləməsinin qarşısı alınır.

Nazirlikdən universitetimizə nümayəndələr gəlib tələbələrlə görüş keçirilmir. Universitetə nazirlik əməkdaşları gəldikdə bəzi seçilmiş tələbələrlə nazir müavini, şöbə müdiri və s. görüşür. O tələbələr də universitetdə olan problemləri söyləmir, ancaq universitet rəhbərliyini tərifləmək üçün rəhbərlik tərəfindən görüşə icazə verilir.

### Yataqxana şəraiti dözülməzdir, tələbələrin ləyaqəti tapdanır

Yataqxana şəraiti, içməli suyun pulla satılması, işıqlandırma və internetin bərbad vəziyyətdə olması tələbələrin təhlükəsizliyini təhdid edir. Liftlərin işləməməsi və suyun 6-cı və 7-ci mərtəbələrə əl ilə daşınması tələbələrin tez-tez qarşılaşdığı dözülməz bir vəziyyətdir. Gecə saatlarında yataqxana tamamilə qaranlıq olur və bu da əlavə təhlükə yaradır. Sərbəst dolaşan sahibsiz itlər tələbələrin





təhlükəsizliyini ciddi şəkildə təhdid edir. Heç bir müvafiq qurum isə bu məsələyə müdaxilə etmir.

### Təcrübə üçün nəqliyyat xətləri ayrılmır, pul mənimsənilir

Təcrübə üçün ətraf rayonlara gedən tələbələrə ayrılan nəqliyyat xətləri ya işləmir, ya da bu xətlərin pulu mənimsənilir. Tələbələr öz xərcləri ilə nəqliyyat tapmağa məcbur qalır, lakin bu xərclərdən heç bir şəffaflıq təmin edilmir.

Bundan əlavə, müxtəlif vəzifələrə qanunsuz təyinat - ixtisasına uyğun olmayan şəxslərə müxtəlif kafedralarda iş (vəzifə ) verilir.

Fakultələrdə bir çox otaqlarda stol və avadanlıqlar yoxdur, otaqlar boş haldadır.

Mart ayının 6-da Birinci vitse-prezident, hörmətli Mehriban xanım Əliyeva Gəncə şəhərinə səfər etdi və Gəncə əhalisi ilə görüş keçirdi. Bu görüşə də Aqrar Universitetdən özlərini təriflətdirmək üçün 4 nəfər müəllimin qatılmasına icazə verdilər. Bu müəllimlərdən biri rüşvətə görə 2009-2010-cu illərdə tələbə tərəfindən bıçaqlanmış Məhərrəm Hüseynovdur. Halbuki, universitetdə çox obyektiv, vətənini, millətini sevən, dövlətin, xalqın yaxşılığı üçün əlindən gələni edən o qədər müəllim, o cümlədən tələbə var ki, onların vəzifəli şəxslərlə görüşməsinə icazə verilmir.

### Mətbəənin yerini dəyişib, 250 min manata yaxın pul siliblər

Universitetdə 2004-2005-ci illərdə qurulmuş mətbəəni yenidən qurmaq adi ilə yerini dəyişdirib, bu iş üçün 250 min manata yaxın pul siliblər. Halbuki, heç bir avadanlıq dəyişilməyib, sadəcə bir binadan başqa bir binaya köçürüblər.

**Bu baxımdan, əminliklə deyə bilərik ki, Azərbaycan Dövlət Aqrar Universitetində təhsil artıq yalnız rəsmi formallıqdan ibarətdir və bu vəziyyət təcili olaraq dəyişdirilməlidir. Tələbələrin haqları kobud şəkildə pozulur və bu vəziyyət davam edərsə, ADAU-dan məzun olan tələbələr peşəkar baytar həkimi və mütəxəssis olaraq yetişə bilməyəcəklər. Bu baxımdan, tələb edirik ki:**

**1.** Tədris sisteminin dərhal yenidən qurulması, tələbələrə real biliklər verilməsi və dərs yükünün düzgün bölünməsi təmin edilsin.

**2.** Heyvan təminatının bərpa edilməsi, universitet təsərrüfatında baş verən oğurluq və mənimsəmələr araşdırılsın.

**3.** Yataqxana şəraitinin dərhal yaxşılaşdırılması, su, internet və işıq məsələlərinin həlli üçün təcili tədbirlər görülsün.

**4.** Sahibsiz itlərin problemi həll edilsin və tələbələrin təhlükəsizliyi təmin olunsun.

Bu məsələyə dərhal müdaxilə olunmasını və tələbələrin hüquqlarının qorunmasını xahiş edirik. Əks halda, əlimizdə olan bütün vasitələrlə hüquqlarımızı müdafiə etməyə davam edəcəyik".

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiydan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

Şirvan şəhər sakini Həsənov İlham Böyükkişi oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə müraciət edir:



# Zərdabın icra başçısı haqda şok ittihamlar

## Şirvan sakinindən ölkə başçısına müraciət: "Zərdabın icra başçısı deyir ki, əmlakını satıb, bizə 3 milyon 200 min manat verəcəksən"




**"Hörmətli Prezident!**

Mən, Həsənov İlham Böyükkişi oğlu, yazaraq Sizdən kömək gözləyirəm. Bilirəm ki, bu müraciətim sizə çatsa, başıma açılan bu haqsızlıqlara son veriləcək.

20 ildir YAP-ın üzvüyəm. Həmçinin, 2015-ci ildən Dövlət Məşğulluq Agentliyindədə iş növbəsindəyəm.

Bildirirəm ki, Əlibayramlı (Şirvanmüəl.) Şəhər İcra Hakimiyyəti başçısının 30 yanvar 1996-cı il tarixli sərəncamına əsasən "Ləman" kəndli fermer təsərrüfatına kənd təsərrüfatı məhsullarının istehsalı üçün 60 hektar torpaq sahəsi ayrılmışdır. Bununla bağlı "Ləman" Kəndli Fermer Təsərrüfatına "Torpağa mülkiyyət, sahiblik və daimi istifadə hüququna dair dövlət aktı" verilmişdir. "Ləman" kəndli Fermer Təsərrüfatının mülkiyyətinə verilmiş 60 ha torpaq sahəsinin koordinatları hal-hazırda Salyan Rayon İcra Hakimiyyəti başçısının 15.09.2014-cü il tarixli, 200S sərəncamı ilə Səfərov Əhəd Heybət oğluna ayrılmış 1150 ha torpaq sahəsinin koordinatları ilə üst-üstə düşür. Lakin bildirmək istəyirəm ki, "Ləman" Kəndli Fermer Təsərrüfatının mülkiyyətinə torpaq sahəsi 1996-ci ildə verilmişdir.

Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 2.2.3-cü maddəsinə əsasən, inzibati orqan tərəfindən inzibati aktın qəbul edilməsi ilə bağlı olmayan müəyyən hərəkətlərin edilməsinə dair iddialara (öhdəliyin icrası haqqında iddia) inzibati məhkəmə icraatı qaydasında baxılır.

Həmin məcəllənin 34.1-ci maddəsinə əsasən, öhdəliyin icrası haqqında iddia vasitəsi ilə iddiaçı cavabdehdən inzibati aktın qəbul edillməsi ilə bağlı olmayan (inzibati aktın qəbul edilməsinə yönəlməyən) müəyyən hərəkətlərin edilməsini tələb edə bilər. Öhdəliyin icrası haqqında iddia vasitəsi ilə iddiaçı cavabdehdən inzibati aktın qəbul edilməsi ilə bağlı olmayan(inzibati aktın qəbul edilməsinə yönəlməyən) müəyyən hərəkətlərin edilməsini tələb edə bilər. Öhdəliyin icrası haqqında iddia vasitəsi ilə həmçinin inzibati orqanlar tərəfindən ümumi hüquqi öhdəliklərin pozulması nəticəsində vurulmuş ziyana görə kompensasiyanın ödənilməsi də tələb edilə bilər.



Azərbaycan Respublikasının
İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti
Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri
publik hüquqi şəxsi

AZ1073, Bakı şəh., H.Cavid pr., 135
Faks: (+99412) 510-85-31
Tel.: (012) 510-84-30; (daxili 71-32, 72-31, 71-[illegible])
E-mail: dedkr@emlak.gov.az

«28» noyabr 2024-cü il № 3-21-3-02[illegible]-H-1148/02[illegible]

Vətəndaş Həsənov İlham
Böyükkişi oğluna

Ünvan: Şirvan şəhəri, Şirvan küçəsi, ev 56

Müraciətinizə baxılması barədə

**Hörmətli İlham Həsənov!**

Şirvan şəhərində yerləşən 60 hektar torpaq sahəsinin istifadəsində və sənədləşdirilməsində yaranmış çətinliklər barədə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyindən İqtisadiyyat Nazirliyinə daxil olmuş 25.10.2024-cü il tarixli müraciətinizə (daxilolma qeydiyyatı: 3-21/1-H-7425-39/2024, 06.11.2024) aidiyyəti üzrə baxılmışdır.

Araşdırma zamanı məlum olmuşdur ki, həmin torpaq sahələrinə dair yaranmış mübahisə Şirvan İnzibati Məhkəməsinin icraatındadır.

Məhkəmənin yekun qərarından sonra məsələ hüquqi həllini tapacaqdır.

Hörmətlə,
İdarə Heyətinin sədr müavini — Fərid Cəfərov

Hazırda isə məni təhdiq edən Zərdab rayon icra başçısı bildirir ki, "həmin əmlakı satıb, bizə 3 milyon 200 min manat verəcəksən". Dəfələrlə şərlənmə, hədə-qorxu ilə üz-üzə qalmışam. Post-patrul xidməti cinayətkarmışam kimi daim məni izləyir. Özüm namaz qılan, oruc tutan adamam. Az qalıram əmlakı verim, özüm də vətəndaşlıqdan imtina edim. 17 yaşında əkiz övladlarım təzyiqlərə məruz qalaraq dünyasını dəyişdilər. İllərdir işsizlikdən əziyyət çəkirəm.

**Cənab Prezident!**

Şirvanda əkin üçün 60 hektar yerim var, əkinlərimi, bağı sulamaq üçün mənə icazə vermirlər. İcra başçısı deyir: "sən kimsən, bu sudan istifadə edəsən?!" Ayda 4 dəfə məhkəmələrdə oluram. Artıq yorulmuşam. Mənə aid olan torpağımdan, əmlakımdan istifadə edə bilmirəm. 77 min manat haqsız yerə cərimə olunmuşam. Torpağım daim istifadədə olub. Bu günə kimi də vergiyə borcum olmayıb.

Xahiş edirəm, bu problemimlə bağlı göstəriş verəsiniz. Artıq haqsızlığa tab gətirə bilmirəm".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# Şirkət rəhbəri FHN-dən şikayətçidir

## Elşən Aslanovdan ölkə başçısına müraciət: "Bizim sənədlərə süni şəkildə maneələr yaradılır..."



**Hüquqi ünvanı Sumqayıt şəhəri, 9-cu mikrorayon, ev 48, mənzil 40-da yerləşən, yanğından mühafizə sistemlərinin və vasitələrinin quraşdırılması, o cümlədən texniki xidmət və təmir işlərini həyata keçirən "Yanğın.az" MMC-nin rəhbəri Aslanov Elşən Hüsü oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə müraciət edən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**

**"Möhtərəm Prezident!**




Yazıb Sizə bildirirəm ki, rəhbərlik etdiyim "Yanğın.az" MMC 2018-ci ilin mart ayından fəaliyyət göstərir. Şirkət yanğın təhlükəsizliyi sistemlərinin quraşdırılması üzrə ixtisaslaşdırılıb və İqtisadi İnkişaf Nazirliyinin verdiyi xüsusi lisenziya əsasında fəaliyyət göstərir. Bu müddət ərzində saysız-hesabsız binalarda və qeyri-yaşayış obyektlərində yanğın təhlükəsizliyi sistemləri quraşdırılıb, FHN-ə təhvil verilmişdir.



Ölkə başçısının imzaladığı fərmana əsasən, ölkədə qeyri-yaşayış obyektlərinin özəlləşdirilməsi prosesi artıq 2-ci ildir həyata keçirilir. 2024-cü ilin sonunadək bizim gördüyümüz işlər şərtsiz olaraq qəbul olunurdu. Yəni verdiyimiz sənədlər FHN tərəfindən qəbul olunurdu. Lakin 2025-ci ilin fevral ayından etibarən bizim tərəfimizdən verilən sənədlərə FHN-in əməkdaşları tərəfindən süni şəkildə maneələr yaradılır. Belə ki, "Yanğın.az" MMC tərəfindən görülmüş işlərin sənədlərini qəbul etmirlər. Obyekt sahiblərinə bildirirlər ki, yalnız "Safe Life" MMC tərəfindən görülən işləri qəbul edirik. Bu da birmənalı şəkildə bu sahədə monopoliyanın yaranmasıdır.



Bundan əlavə, nəzərinizə çatdırıram ki, belə bir vəziyyətin yaranması şirkətimdə işləyən işçilərin işsiz qalmasına səbəb olur. "Yanğın.az" MMC-də Qarabağ qazisi, Qarabağ müharibəsi veteranları işləyir. Bu da onların əmək haqqı almalarında çətinliklər yaradır.

Xahiş edirəm, bu məsələlər dərindən araşdırılsın, şirkətlərin normal ab-havada işləməsinə şərait yaradılsın. Ölkəmizdə sağlam rəqabət olsun".

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# 8 Martda 400 Şəhid anası biraraya gəldi

## "Fireland Group" "Mənim Oğlum Qəhrəmandır" layihəsi çərçivəsində növbəti möhtəşəm tədbirini keçirdi




Əslində, bu haqda dəfələrlə yazmaq istəmişəm. Lakin hər dəfə kompüterin qarşısına oturanda hiss etmişəm ki, fikirlər, yazılan cümlələr görülən işin qarşısında çox sönük qalır. Əlbəttə, bu, mənim özünüifadə bacarığımın zəifliyindən irəli gəlmir. Sadəcə, düşünmüşəm ki, hər bir işin dəyərini layiqli şəkildə vermək lazımdır. Xüsisilə, müqəddəslər haqda yazacağıqsa, gərək onları olduqları kimi təqdim edə bilək. Bunu bacarmayacağıqsa, məncə, əlimizə qələm almağa da ehtiyac yoxdur...

Görünür, elə bu səbəbdən də, hər dəfə yazmaqdan vaz keçib, sanki daha uyğun bir zamanı gözləmişəm. O günü ki, artıq özümüzdə cəsarət tapıb, bu yazını qələmə almaqdayıq. Harada kəm-kəsirimiz olsa, nəyisə doğru ifadə edə bilməsək, bəri başda oxucuların əfvinə sığınırıq...

Bəli, hər bir Şəhid bizim üçün müqəddəsdir. Çünki Onlar Tanrı hüzurundadırlar. Vətən uğrunda şəhadətə qovuşmaqla, hər biri bu yüksək məqama yetişiblər. Beləliklə də hər bir vətəndaşımızın, hər bir azərbaycanlının qəlbində müqəddəsləşiblər. Heç də təsadüf deyil ki, zaman-zaman onların qəhrəmanlıq salnamələri ilə bağlı çox sayda məqalələr, şeirlər yazılır, keçdikləri döyüş yolu ilə bağlı filmlər çəkilir, mahnılar bəstələnir. Amma etiraf edək ki, Şəhidlərimiz barəsində yazılan hər bir əsər, qələmə alınan hər bir şeir, deyilən hər bir ifadə onların qəhrəmanlıqları qarşısında çox sönük qalır, o yazını kimin yazmasından, o şeiri kimin qələmə almasından, o ifadəni kimin işlətməsindən asılı olmayaraq. Doğrudur, bütün bunlar tarix üçün, gələcək nəsillər üçün çox faydalı və gərəklidir. Lakin, bir daha qeyd etməyə məcburuq ki, bunlar Şəhidlərimizin göstərdikləri şücaətlərlə müqayisəyəgəlməz ölçüdədir. Belə demək olarsa, onları daima xatirələrdə yaşatsa da, ruhlarını oxşamaqda acizdir...

Bununla belə, xüsusilə də 44 günlük Qarabağ savaşından sonra Şəhidlərimizin ruhunu oxşayan, onları Tanrı hüzurunda daha böyük rahatlığa qovuşduran işlər də az görülməyib. Bunun altını çizərək deyə bilərik ki, istər Aprel savaşında, istər İkinci Qarabağ müharibəsində, istər də Antiterror əməliyyatlarında Şəhid olmuş qəhrəmanlarmızın ruhu bu gün şaddır. Çünki onların əmanətləri - övladları, xanımları, valideynləri və bütün doğmaları dövlətimizin qayğısı altındadır. Hansı ki, istər Prezidentin, istər də Birinci vitse-prezidentin göstərişi ilə hər bir şəhid əmanəti ilk gündən diqqət mərkəzinə alınıb, onların qəlbində yaranan boşluğu dövlətimiz öz qayğısı ilə doldurmağa çalışır. Bu işdə bir sıra rəsmi qurumlarla yanaşı, "Fireland Group"un əməyini ayrıca qeyd etmək lazımdır. Çünki bu təşkilatın peşəkar komandası, Cəlal Qurbanovun rəhbərliyi altında, son 4 il ərzində istər "Mənim Atam Qəhrəmandır", istər də "Mənim Oğlum Qəhrəmandır" layihəsi çərçivəsində sözlə ifadə oluna bilməyəcək səviyyədə böyük işlər görüblər. "Fireland Group" Zəfər Tariximizdən bu yana heç bir Şəhid əmanətini diqqətdən kənarda qoymayıb. "Mənim Atam Qəhrəmandır" layihəsi çərçivəsində bütün şəhid övladları çoxsaylı tədbirlərdə biraraya gətirilib, hər bir fəsildə, hər bir bayram ərəfəsində anaları ilə birgə onların ölkəmizin gözəl guşələrində istirahət etməsi üçün bütün şərait yaradılıb, istər fərdi, istər də qrup halında Şəhid övladlarının doğum günləri qeyd olunub, onlara hədiyyələr təqdim olunub. Bir sözlə, "Fireland Group" dövlət adına Şəhid övladlarının qəlblərindəki boşluğa daxil olmağa, onlara atasız olduqlarını hiss etdirməməyə çalışıb. Bəs, buna nə qədər nail olub, zənnimizcə, bu suala hər bir tədbirdə iştirak edən körpələrin üzlərindəki gülüş, gözlərindən axan sevinc göz yaşları "cavab verə bilər".

"Fireland Group" "Mənim Oğlum Qəhrəmandır" layihəsi çərçivəsində də dəfələrlə Şəhid analarını, Şəhid atalarını biraraya toplayaraq, övlad həsrəti yaşayan bu insanlara təsəlli, dayaq olmağa çalışıb. Heç də təsadüfi deyil ki, bu günə qədər bütün bölgələrimizdən olan Şəhid əmanətlərinin 50-dən çox müxtəlif formatlı tədbirdə iştirakı təmin olunub. Məsələn, Şəhid anaları nəinki hansısa özəl günlərdə yada salınır, "Fireland Group"-un rəhbərliyi demək olar ki, hər gün onların qayğısına qalır, hər biri ilə ayrıca maraqlanır, ehtiyacları yerindəcə həll olunur, sağlıq problemi yaşayan Şəhid valideynləri Heydər Əliyev Fondunun dəstəyi ilə müayinə və müalicə olunur. Bu işdə isə, xüsusilə, Cəlal Qurbanovun xidməti əvəzolunmazdır. Elə bu günlərdə 8 Mart Dünya Qadınlar Günü və Ramazan Bayramı ilə bağlı keçirilən toplantıda da bunun bir daha şahidi olduq...

Dəyərli oxucuların diqqətinə çatdıraq ki, təxminən 70 rayonumuzu təmsil edən 400 nəfərdən çox Şəhid anasının, ümumilikdə 700-800 nəfər qonağın iştirak etdiyi bu tədbir, sözün əsl mənasında, dövlətimizin Şəhid əmanətlərinə qayğısının təcəssümü idi. Heydər Əliyev Fondunun dəstəyi və "Fireland Group"-un yüksək səviyyəli təşkilatçılığı ilə baş tutan şənlik mərasimi həqiqətən də hər bir iştirakçıya unudulmaz anlar yaşatdı. Təsəvvür edin ki, bu tədbirdə iştirak edən 400 nəfərdən çox Şəhid anasının hər birinin xidmətində sanki bir nəfər dayanmışdı. Onlar elə bir qayğı və diqqətlə əhatələnmişdi ki, doğrusu, "Fireland Group"-un çox da böyük olmayan kollektivinin belə bir möhtəşəm tədbiri qüsursuz təşkil etməsi, bir nəfərin belə, diqqətdən kənarda qalmaması insanda qibtə doğurmaya bilməzdi. Üstəlik, Şəhid analarının hər biri üçün əvvəlcədən 8 Mart hədiyyələrinin hazırlanması, tədbirdə isə ayrıca olaraq gül dəstələrinin tədim olunması onlara diqqətin bariz nümunəsi idi.

Bu tədbirdə onun da şahidi olduq ki, artıq hər bir Şəhid anası da "Fireland Group"-un bir fərdinə, üzvünə çevrilib. Məsələn, onların dövlət himnimizi xorla oxuması, tədbirin gedişində isə musiqi sədaları altında əllərində olan bayrağımızı sağa-sola dalğalandırması və s. bu kimi amillər toplantıya əlavə rəng qatırdı. Həmçinin, bu toplantıda Şəhid analarının artıq bir-biri ilə qaynayıb-qarışdığının da şahidi olduq. Görünür, son 4 il ərzində təşkil olunan tədbirlərdə dəfələrlə iştirak edən Şəhid anları artıq bir-biri haqda yetərli informasiyaya malik idilər. Bu səbəbdən də, onlar lazım gəldikdə bir-birinə təsəlli verir, sanki qarşılıqlı olaraq öz dərd-kədərlərini ovutmağa çalışırdılar.



Əslində, bu birlik nümunəsinin özü də "Fireland Group"-un uğurlarından biridir və təqdirolunan haldır. Çünki Şəhid valideynlərinin birliyi, dolayısı ilə cəmiyyətimizin birliyinə, bərabərliyinə töhfə verən haldır. İnanırıq ki, bu birliyin yaranmasında mühüm rolu olan "Fireland Group" qarşıda daha böyük uğurlara imza atacaq, Şəhid əmanətləri bundan sonra da hər zaman diqqət mərkəzində olacaq.

**İ.SABİRQIZI**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

# Azərbaycanda vətəndaş cəmiyyətinin mövcüd durumu

## Əliməmməd Nuriyev: "Azərbaycanda QHT-lərin ən böyük problemlərindən biri alternativ maliyyə mənbələrinin məhdud olmasıdır"

**Hər bir dövlətin inkişafında vətəndaş cəmiyyətinin özünəməxsus rolu vardır. "Vətəndaş cəmiyyəti" dedikdə dövlət və kommersiya fəaliyyətinə nisbətən müstəqil olan ayrı-ayrı fərdlərin və qrupların öz maraqları və dəyərləri naminə əməkdaşlıq etdiyi ictimai sfera nəzərdə tutulur. Yəni vətəndaşların öz şəxsi təşəbbüskarlıqları ilə yaratdıqları qeyri-dövlət müəsisələri, icarə kollektivləri, aksioner təşkilatlar, korporasiyalar və digər könüllü ictimai birliklər nəzərdə tutulur.**

**Vətəndaş cəmiyyəti dövlət qurumlarından asılı olmayan, lakin müvafiq rəsmi təşkilatlarla bu və ya digər şəkildə əməkdaşlıq edən ictimai sfera kimi hüquqi dövlət quruculuğuna, cəmiyyətin inkişafına töhfə verir. Heç də təsadüfi deyil ki, Azərbaycan dövləti vətəndaş cəmiyyətinin inkişafına böyük dəstək göstərir, bu sferanın genişlənməsi naminə mütəmadi olaraq qrand layihələri elan edir.**

**O cümlədən, müxtəlif sahələri əhatə edən ictimai birliklərin sayının son zamanlar surətlə artması da, bu sahəyə dövlət qayğısının bariz nümunəsi hesab oluna bilər. Bəs, bu gün vətəndaş cəmiyyəti nümayəndələrinin özləri bu haqda nə düşünür? Onlar dövlətin bu sahəyə dəstəyini yetərli hesab edirlər?**

**Bu və ya digər suallarımıza Konstitusiya Araşdırmalar Fondunun rəhbəri, hüquqşünas Əliməmməd Nuriyevlə söhbətimizdə cavab tapmağa çalışdıq.**

*(Əvvəli ötən sayımızda)*

***- Bu gün ölkəmizdə aktiv fəaliyyət göstərən yüzlərlə qeyri-hökümət təşkilatı, ictimai birlik mövcuddur və onlar istər "QHT Şurası"ndan, istər də müvafiq dövlət qurumlarından maddi dəstək alaraq, öz layihələrini həyata keçirirlər. Sizcə, dövlətin vətəndaş cəmiyyətinə dəstəyi yetərlidirmi?***

- Azərbaycanda bu gün yüzlərlə qeyri-hökümət təşkilatı və ictimai birlik fəaliyyət göstərir. Statistikaya baxsaq görərik ki, ölkəmizdə 4 minə yaxın qeyri-hökümət təşkilatı və ictimai birlik fəaliyyət göstərir. Onların bir çoxu QHT agentliyindən və digər dövlət qurumlarından maliyyə dəstəyi alaraq, müxtəlif layihələr həyata keçirirlər. Bunlar vətəndaş cəmiyyətinin güclənməsi üçün vacibdir. Məsələnin digər tərəfi isə odur ki, bu dəstək doğurdanmı yetərlidir? Vətəndaş cəmiyyətinin həqiqi müstəqilliyi, nəticəvi lahiyələri həyata keçirməsi üçün kifayət edirmi?



Əslində, vətəndaş cəmiyyəti təkcə qeyri-hökümət təşkilatlarından ibarət deyil. Bu, insanların öz cəmiyyətlərini daha yaxşı etmək üçün problemlərinin həllini axtardığı bir sistemdir. Yəni vətəndaş cəmiyyətinə bir sistem kimi yanaşmaq lazımdır. Vətəndaş cəmiyyəti həm dövlətin, həm də insanların ortaq maraqlarını qoruyur. Bəzi ölkələrdə vətəndaş cəmiyyəti dövlətin dəstəyi ilə fəaliyyət göstərir, yəni dövlət müəyyən maliyyə ayırır və qanunlarla bu sahəni tənzimləyir, prosesin içində qalır. Digər ölkələrdə isə QHT-lər özəl sektora beynəxalq donorların dəstəyi ilə işləyirlər. Yəni tam müstəqil olurlar.

Azərbaycanda vətəndaş cəmiyyətinin modelliyi birinciyə daha yaxındır. Yəni dövlətin dəstəyi ilə fəaliyyət göstərir, dövlət maliyyə ayırır, qanunlarla tənzimləyir. Belə desək, dövlətin bu sahəyə aktiv müdaxiləsi və maddi dəstəyi var. Bu yanaşmanın həm üstün, həm də məhdudlaşdırıcı cəhətləri var. Bir tərəfdən baxanda, dövlətin QHT-ləri maliyyələşdirməsi müsbət haldır. Çünki bu, onların davamlı fəaliyyət göstərməsinə imkan yaradır. Amma, digər tərəfdən, maliyyə asılılığı müəyyən problemlər də yarada bilər. Ona görə, hər şeydən əvvəl ilk növbədə vətəndaş cəmiyyəti yalnız dövlətin ayırdığı vəsait hesabına ayağa qalxırsa, onu tam müstəqil işləməsinə mane ola bilər.

Bir çox hallarda vətəndaş cəmiyyəti ayri-ayrı dövlət qurumlarından asılı vəziyyətə düşür. İstər-istəməz dövlətin müəyyən etdiyi çərçivədə qalır. Əlbəttə, dövlətin milli maraqları, suverenliyi, təhlükəsizliyi - qırmızı cizgilərdir və bütün vətəndaş cəmiyyəti də bu qırmızı cizgilərə uyğun olaraq fəaliyyət göstərir. Bir də var, ayrı-ayrı dövlət qurumlarından tam asılı vəziyyətə düşmək. Bax, bu, vətəndaş cəmiyyətinin yetərli qədər öz fəlsəfəsindən uzaqlaşmasını göstərir.

***- Belə anlaşılır ki, Azərbaycanda QHT-lərin ən böyük problemlərindən biri alternativ maliyyə mənbələrinin məhdud olmasıdır...***

- Bəli. Əgər xarici donorların fəaliyyəti məhdudlaşdırılıbsa və özəl sektor bu sahəyə ciddi maliyyə yatırmırsa, QHT-lər artıq dövlətin ayırdığı məbləğlə işləmək məvburiyyətində qalacaq. Ona görə də alternativ maliyyə mənbələrinin inkişaf etməsi vacib məsələdir. Digər tərəfdən, cəmiyyətin proseslərə marağı necədir? QHT təkcə dövlətin ayırdığı vəsaitlərlə işləməməlidir, cəmiyyətin özü proseslərdə iştirak etməlidir. İnsanlar vətəndaş cəmiyyətini özlərindən uzaq bir qurum kimi yox, öz həyatlarına təsir edə biləcək vasitə kimi görməlidirlər. Amma bizim vətəndaş cəmiyyəti gərək bu istiqamətdə "magistral yola" çıxsın. Vətəndaşlarımız görsün ki, məhz cəmiyyətin maraqlarını daha çox ifadə etməyə çağırır. O zaman vətəndaş cəmiyyətinin bir hissəsi olaraq bizim vətəndaşlar özlərini görəcək, onlara geniş həm maliyyə resursu, həm intellektual, həm də digər təşəbbüs dəstəkləri göstərəcəklər.

Vətəndaş cəmiyyətinin güclü olması üçün təkcə maliyyə dəstəyi yetərli deyil. Bəzi vacib məsələlər də var ki, onun həlli prosesi vətəndaş cəmiyyətinin daha sağlam irəliləməsinə kömək edə bilər. İlk növbədə vətəndaş cəmiyyəti ilə bağlı qanunvericilik bazasının daha da gücləndirilməsi, daha da təkmilləşdirilməsi vacibdir. Məsələn, qeyri-hökümət təşkilatlarının qeydiyyat prosesinin sadələşdirilməsi. Eyni zamanda, vətəndaş cəmiyyətinin hesabatlılığı ilə bağlı proseslər daha şəffaf, daha əlçatan olmalıdır. Yəni cəmiyyətimizin hər bir üzvü görməlidir ki, vətəndaş cəmiyyəti nə edir, necə edir, hansı mənbələr hesabına edir və hansı nəticələrə nail olmuşdur. Ona görə də ilk növbədə qanunvericiliyin bu istiqamətdə daha da təkmilləşdirilməsinə ehtiyac var. Həm qeydiyyat, həm şəffaflıq, hesabatlılıqla bağlı məsələlərin, həm də maliyyə mənbələrinə əlçatanlığın gücləndirilməsi...

> "Vətəndaşlar yalnız QHT layihələrindən faydalanan tərəf kimi deyil, həm də bu prosesin içində iştirakçı kimi çıxış etməlidirlər"

Vacib məsələlərdən biri də alternativ maliyyə mənbələrinin yaradılmasıdır. QHT-lər təkcə dövlətdən deyil, həm də özəl sektordan - cəmiyyətdən maliyyə vəsaiti ala bilməlidirlər. Bunun üçün imkan olmalıdır. Özəl sektor bu proseslərə daha dərindən daxil olmalıdır. Özəl sektoru bu istiqamətdə maraqlandırmaq lazımdır. Bilməlidir ki, nəyə görə vətəndaş cəmiyyətinin layihələrinə dəstək verməlidir.

Digər vacib məsələlərdən biri də odur ki, əgər vətəndaş cəmiyyətinin layihələrini dəstəkləyirsə, özəl sektora vergi güzəştləri olmalıdır. Bununla bağlı ayrılan vəsait bütövlükdə vergidən azad edilməlidir. Bu, həm vətəndaş cəmiyyətinin maliyyə mənbələrini genişləndirəcək, həm də bununla dövlət vətəndaş cəmiyyəti ilə özəl sektorun daha yaxşı əməkdaşlıq platforması yaratmasına gətirib çıxaracaq.

Mən hər zaman söyləmişəm, cəmiyyətin özü 3 sütun üzərindədir: bir tərəfdə dövlət, bir tərəfdə özəl sektor, bir tərəfdə də vətəndaş cəmiyyətidir. Nə qədər bunlar arasında harmonik əlaqə varsa və bir-birini dəstəkləyirlərsə, o qədər cəmiyyətin dayanıqlı inkişafı surətlənəcək, o firavanlıq daha da genişlənəcək. Sosial dövlət tam mənada özünün gerçək bir ifadəsini tapacaq.

Əlbəttə, insanlar da yalnız QHT layihələrindən faydalanan tərəf kimi deyil, həm də bu prosesin içində iştirakçı kimi çıxış etməlidirlər. Bəziləri gözləyir ki, QHT su çəkdi, hansısa problemi həll etdi və faydalandı. Daşkəsəndə vaxtilə Yapaniya səfirliyinin dəstəyi ilə biz 8 kilometrlik məsafədən kəndə su çəkdik və bir neçə yerdə bulaqlar yaratdıq, böyük su çənləri düzəltdik. Həmin kənd içməli su ilə təmin oluna bilmirdi. Su dağdan gətirilməli idi. Biz bu işləri görüb, bələdiyyəyə və ərazi icra nümayəndəsinə təhvil verdik. Amma bir il keçəndən sonra gördük ki, həmin bulaqların "kran"ları sındırılıb. Yenidən onları bərpa etdik. Yəni vətəndaş cəmiyyəti bunu edir və onların ehtiyaclarını ödəyirsə, eyni zamanda insanlar da onu qorumalıdır. Hətta onu inkişaf etdirib, daha da genişləndirməlidirlər. Bu baxımdan, hesab edirəm ki, ən vacib məsələlərdən biri də proseslərdə passiv fərd, gözləyən, faydalanan tərəf kimi yox, aktiv tərəf kimi iştirak etməkdir. Vətəndaşlar nə qədər fəal olsalar, bir o qədər vətəndaş cəmiyyətinin inkişafına təkan vermiş olarlar.

***- Qeyd etdiniz ki, bəzi hallarda QHT-lər, ictimai birliklər müvafiq qurumlardan asılı vəziyyətə düşür. Bəs, vətəndaş cəmiyyətinin tam müstəqil olması üçün nə etməliyik?***

- Biz ələbaxımlılıqdan bir qədər uzaqlaşmalıyıq. Şübhəsiz ki, dövlətin bu proseslərdə rolu müstəsnadır. Amma, eyni zamanda dövlət nəsə verirsə, biz də bu proseslərə nəsə verməliyik. Yəni bu, birtərəfli olmamalıdır. Biz bu sualın cavabını o zaman tapa biləcəyik ki, cəmiyyət nə qədər aktiv olacaq, dövlətin hüquq çərçivələri nə qədər bu açıqlığa, şəffaflığa yeni fürsətlər verəcək, özəl sektor bu prosesə necə qoşulacaq... Bütün bunlardan asılıdır. Əgər biz güclü vətəndaş cəmiyyəti istəyiriksə, onun şəffaflığına yalnız dövlət deyil, cəmiyyətin özü töhfə verməlidir. O zaman da güclü dövlət, güclü özəl sektorun şahidi olacağıq.

**"Hürriyyət"**

# Saatlı sakininin kartından 880 manat oğurlanıb...




**Saatlı rayonu, Orta Muğan kənd sakini, II qrup hərbi əlil Əsgərov İbad Yadulla oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi saytımız vasitəsilə Daxili İşlər naziri Vilayət Eyvazova və Baş prokuror Kamran Əliyevə müraciət edir:**

**"Hörmətli Vilayət Eyvazov!**
**Hörmətli Kamran Əliyev!**

İlk öncə bildirim ki, 28 noyabr 2024-cü ildə, gecə saat 01:25 radələrində özümə məxsus olan 4169...3890 kart hesabımdan 888 manat məbləğində pul çəkilmişdir. Bununla bağlı müraciət etmədiyim qurum qalmayıb. Lakin hələ də cinayətkar həbs olunmayıb.

Həmin məbləğ Beynəlxalq Bankın 5220 9936 2861 940* nömrəli kart hesabına köçürülmüşdür.

28 noyabr 2024-cü il, saat 11:00 radələrində kart hesabımdan pullarımın çıxarılmasını bilmişəm. Dərhal DİN-nin 102 qaynar xəttinə məlumat verdim. "Kapital Bank"a gedərək kartımı bloklatdım. Həmin vaxt həm yeni kart götürdüm, həm də pullarımın çıxarılmasını təsdiq edən çıxarışı alıb, Saatlı Rayon Polis Şöbəsinə rəsmi qaydada müraciət etmişəm. Bütün bulara rəğmən, 01 dekabr 2024-cü il tarixində, saat 18:50 radələrində yenidən təqaüd kartımda olan 20 manatın 18 manatı, yeni aldığım kartda olan 15 mantın isə 13 manatı kiber cinayətkarlar tərəfindən mənimsənilib. Son məbləğlər isə Azərbaycan Beynəlxalq Bankına məxsus 5522 0993 6831 8580 nömrəli hesabına köçürülmüşdür.

**Hörmətli Vilayət Eyvazov!**

07 dekabr 2024-cü ildə onlayın qaydada Sizə də müraciət etmişəm. DİN-nin İstintaq Tədqiqat Bölməsinin apardığı araşdırma nəticəsində məlum olub ki, Saatlı Rayon Polis şöbəsinin İstintaq Tədqiqat Bölməsində, etdiyim şikayətə baxılıb və guya, ortada "cinayət işi olmadığı üçün" cinayət işi dayandırılmışdır. DİN bu işin yenidən araşdırılması üçün həmin qərarı Saatlı rayon prokuroruna həvalə etmişdir. Saatlı Rayon Prokurorluğu da həmin qərarı ləğv edərək, işi yenidən 10 gün müddətində araşdırılması üçün Saatlı Rayon Polis Şöbəsinə təqdim edib.

Xeyli müddət keçməyinə baxmayaraq, nə vəsaitim qaytarılır, nə də cinayətkar həbs olunur. Necə cinayət işi sayılmaya bilər ki, məbləğ 500 manatdan çoxdur?! Mən xahiş edirəm ki, işimə ətraflı baxılması üçün göstəriş verəsiniz.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adı çəkilən qurumların mövqeyini dərc etmək üçün hazırıq.**

# Qarabağ qazisi 3 ildir iş tapa bilmir

## "Dövlət Məşğulluq Xidmətinə müraciət etmişəm, amma..."




Ağcabədi rayon sakini, 44 günlük Qarabağ savaşının qazisi Abbasov Abbas Azad oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. İşsizlikdən əziyyət çəkən qazinin müraciətini olduğu kimi dərc edirik: "Yazıb sizdən xahiş edirəm ki, problemimi şıqlandırasınız.

Bildirim ki, qaziyəm, arazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə yaralanmışam. 5 medalla təltif olunmuşam. Kəşfiyyat taborunda xidmət etmişəm. Hal-hazırda da müalicə alıram. İşləmirəm, gəlir yerim yoxdur. 3 ildir Dövlət Məşğulluq Agentliyinə müraciət etmişəm. Lakin hələ də məni işlə təmin etmirlər".

**Jalə FAMİLQIZI**

# ""Aztelekom" MMC "başkəsənlik" edir"

## Şamaxı sakinindən ölkə başçısına müraciət

**Şamaxı rayonu, Yenikənd kənd sakini Mustafayev Ağasəf Azad oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, "Aztelekom" MMC abonentlər arasında ayrıseçkilik edir. Bu səbəbdən, Prezident İlham Əliyevə müraciət edən A.Mustafayevin məktubunu olduğu kimi dərc edirik:**




**"Cənab Prezident!**

Hər kəsə bəllidir ki, kəndlərdə şərait yoxdur, işsizlik hökm sürür. Son illərdə görürük ki, rayonda və kənddə adam qalmayıb. Hər kəs Bakı şəhərinə axın edir. Əvvəllər kənddə internet sistemi də yox idi. Kənd camaatı olaraq sevindik ki, bizim kəndə də internet çəkilir. Əvvəllər qiymətlər münasib idi. İndi isə dəhşət bahalaşıb. "Aztelekom" MMC-də aylıq ödəniş 27 manatdır. Pensiyanın miqdarı da hər kəsə bəllidir, yemək, iynə dərman və kommunal xərcləri ancaq ödəyir.

Qonşularımızın bir çoxu dedi ki, biz gedib müraciət etdik, internetin qiymətini aşağı saldılar. Belə aydın oldu ki, aylıq 27 manatdan 23 manata endiriblər. Mən də Mərkəzi Poçta gedərək ərizə ilə müraciət etdim. Cavab olaraq bildirdilər ki, sizə də güzəşt olundu, ödənişiniz 23 manata endirildi.

Bir neçə ay bundan əvvələdək pensiyalarımız hər ayın 15-də kartlara köçürülürdü. İndi isə hər ayın 28-də ödənilir. Pensiya gecikdi deyə mən də internet ödənişini 1 həftə gecikdirdim. Pulu alandan sonra 23 manat ödəniş etdim, internet açılmadı. Məcbur qalıb, qalan hissəni də ödədim.

Yenidən poçta gedib etirazımı bildirdim. Ordan dedilər ki, bizlik heç nə yoxdur, Bakıdan sizə icazə verilməyib. Çoxsaylı şikayətlər olmağına baxmayaraq, "Aztelekom" MMC "toxunulmazlığını" qoruyub saxlayır. Dərdimizi kimə, hara deyək, bilmirik.

Qeyd edim ki, bu problem yalnız mənə aid deyil. Mənim kimi əziyyət çəkən çox sayda pensiyaçı var.

**Cənab Prezident!**

Qeyd edim ki, internet provayderlərinin arasında ən "başkəsəni" məhz "Aztelekom" MMC-dir. Xahiş edirik, bu haqda tədbir görün".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mğvqeyini dərc etməyə hazırıq.**

# Goranboy sakini ona qanunsuz cərimə yazıldığını iddia edir



**Goranboy rayonu, Kələk kənd sakini, anadangəlmə ürək qüsurlusu olan II qrup əlil Məmmədov Razi Nizami oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Daxili İşlər naziri Vilayət Eyvazova müraciət edir:**

**"Cənab Nazir!**

Mən, II qrup əlil Məmmədov Razi Nizami oğlu, əslində, bu müraciətim üçün özüm də utanıram. Amma kimlər üçünsə böyük olmayan bu məbləğ mənim 2-3 dərmanımın puludur. Çarəsiz qalaraq Sizə müraciət ünvanlayıram. Belə bir problemlə vaxtınızı aldığım üçün Sizdən üzr istəyirəm.

Qeyd edim ki, 03.02.2025-ci il tarixində telefonuma bir mesaj gəldi. Mesajda mənə Daxili İşlər Nazirliyi tərəfindən 100 manat cərimə yazıldığı bildirilirdi. Səbəb isə, guya, mən əlvan metal alqısatqısı ilə məşğulam.

**Cənab Nazir!**

Mən yataq xəstəsiyəm, heç bir adam belə, məni metal alqı-satqısı ilə məşğul olanda görə bilməz.

Mesajı oxuyandan sonra dərhal DİN-in 102 qaynar xəttinə zəng vurub, məlumat vermişəm. Müraciətimdən sonra sahə rəisi evimə gəlib, başıma gələnləri soruşdu. Hamısını olduğu göstərib, vəziyyəti izah etdim. Sağ olsun, o da mənə dedi ki, Razi, narahat olma, çalışıb bu məsələni yoluna qoyacam. Daha sonra isə özü də təəssüf edərək bildirdi ki, əslində, bu işin həlli yolu məhkəmədir.

**Cənab Nazir!**

Mənim məhkəmə rüsumu ödəməyə və vəkil tutmağa pulum olsaydı, elə bu cəriməni ödəyərdim. Cərimə 100 manatdır, amma məhkəmə rüsumu və vəkil ödənişi birlikdə 300 manat pul edir.

Mən Sizdən vətəndaş kimi xahiş edirəm, bu cərimənin məhkəməsiz araşdırılıb, haqq yerini tapması üçün göstəriş verəsiniz. Qorxuram ki, pensiyamdan çıxalar. İnanın, bu zaman mən dərman üçün borclu olduğum şəxslərin yanında yalançı durumuna düşərəm.

Sizdən çox xahiş edirəm, cərimənin üzərimdən silinməsi üçün göstəriş verəsiniz".

**Jalə FAMİLQIZI**





## “Narkotiklərin qanunsuz dövriyyəsindən hər il on milyardlarla dollar gəlir götürülür”

# “Gənclər arasında narkotik istifadə edənlərin sayı artır”

**Fatimə Hacıbəyli:** “Narkotik maddələrin qanunsuz dövriyyəsi cinayətkarlığın artmasına səbəb olmaqla yanaşı, həm də terrorizmin maliyyə mənbəyi kimi beynəlxalq təhlükəsizliyə də ən ciddi təhdidlərdən biri kimi çıxış edir”

Cəmiyyətdə “ağ ölüm” kimi tanınan narkomaniya bəlası insan həyatında sağalmaz fəsadlar yaradır desək, yanılmarıq. Bəşəriyyət üçün bəla olan, irqindən, yaşından, dinindən asılı olmayaraq bütün xalqları, millətləri düşündürən ən ağrılı problemlərdən biri də narkomaniyadır. Silah, insan alveri, orqanların transferi kimi təhlükəli bəlalarla eyni səviyyədə qorxulu olan, cəmiyyətin ciddi bəlasına, xalqın, millətin təhlükə mənbəyinə çevrilən narkomaniya (geniş mənada narkotizm) hazırda sərhəd tanımayan, qlobal xarakter daşıyan beynəlxalq problemə çevrilib.

Bu haqda danışan ”Vəfa sosial problemlərin həllinə dəstək ictimai birliyi”nin rəhbəri Fatimə Hacıbəyli deyir ki, narkomaniya ümumilikdə millətin fiziki və mənəvi sağlamlığına təhlükə yaradır, zərbə vurur. Buraya nəsillərin genetik degenerasiyası, narkomaniyanın QİÇS, hepatit, digər ağır xəstəliklər, homoseksuallıq və fahişəlik problemləri ilə sıx əlaqəsi daxildir. Müxtəlif sosial problemlərin bütöv bir “buketi” narkomanlıqla əhatə olunmuşdur.

“Narkomaniya ilə mübarizə sağlam cəmiyyətin formalaşması baxımından əsas məqsəd və vəzifələrdəndir. Azərbaycanın dövlət siyasətində başlıca vəzifə olan sağlam nəslin formalaşması istiqamətində həyata keçirilən tədbirlər sırasında mühüm istiqamət kimi diqqət yetirilən narkomaniya ilə mübarizə kampaniya xarakterli deyil, davamlı siyasətdir”, - deyən F.Hacıbəyli vurğuladı ki, son vaxtlar dünyada gənc nəsil arasında narkotik vasitə və psixotrop maddələri qəbul edənlərin sayı getdikcə artmaqdadır: “İnzibati qadağa və cəzaların verilməsinə baxmayaraq, bu sahədə müsbət nəticə əldə etmək müşkülə çevrilib. Bu araşdırmada məqsəd gənc nəslin zərərli vərdişlərdən qorunmasının optimal yollarını tapmaqdan ibarətdir. Bunun üçün ümumtəhsil məktəblərində təhsilalanların narkotik vasitələrdən və psixotrop maddələrdən istifadəsinin mövcud vəziyyətini öyrənmək məqsədilə müəllimlər, valideynlər və şagirdlər arasında anket sorğusu keçirilib. Suallar üzrə cavablar ümumiləşdirilib və iştirakçılar maarifləndirmə sahəsində ehtiyaclarına görə qruplaşdırılıb. Məqalədə aparılan araşdırmanın nəticəsi olaraq ümumtəhsil məktəblərində narkotik vasitələrdən və psixotrop maddələrdən istifadənin qarşısının alınması üçün hazırlanan və tətbiq olunan maarifləndirici təhsil proqramı üzrə həyata keçirilən məqsədyönlü işlərin müsbət nəticəsindən bəhs olunur”.

QHT rəhbəri bildirir ki, narkomaniya yeniyetmə və gənclər arasında daha sıx yayılmağa başlamışdır: “İndi sual yaranır ki, yeniyetmə və gənclərə narkomaniya ilə mübarizədə necə dəstək olaq? Çünki son illərin ən aktual məsələlərindən birinə çevrilən narkomaniya yeniyetmə və gənclər arasında daha sıx yayılmağa başlamışdır. Bu hal həm uşaq və gənclərimizə, həm də onların ailələrinə maddi və mənəvi ziyan vurmaqda davam edir. Narkotik maddələr mərkəzi sinir sisteminə spesifik təsir göstərir və tez bir zamanda asılılıq yaradı. “Narkomaniya” sözünün mənasına diqqət etsək, yuxu, bihuşluq, cəzbetmə və ağılsızlıq deməkdir. Bu maddələr bir növ düşüncəyə təsir edir və beyni tənzimləyir. Bu tənzimləmə psixoloji və fizioloji defektlərlə nəticələnə bilir. Bunlara misal olaraq, yaddaş və təfəkkür pozuntusunu, depressiya, diqqət əksikliyi, yuxu pozuntusu, intihar riski, özünə və başqalarına zərər yetirmə hallarını qeyd edə bilərik.

Yeniyetmə və gənclər ilk vaxtlarda düşünürlər ki, narkotik qəbul stressi azaldır, problemləri unutmağa, onlardan uzaqlaşmağa kömək edir. Müəyyən müddətdən sonra isə bu asılılıq onlarda bir problem halına çevrilib, digərlərinin üzərinə əlavə olunmuş olur”.

> QHT rəhbəri bildirir ki, narkomaniya yeniyetmə və gənclər arasında daha sıx yayılmağa başlamışdır: “İndi sual yaranır ki, yeniyetmə və gənclərə narkomaniya ilə mübarizədə necə dəstək olaq? Çünki son illərin ən aktual məsələlərindən birinə çevrilən narkomaniya yeniyetmə və gənclər arasında daha sıx yayılmağa başlamışdır...

Fatimə Hacıbəyli qeyd etdi ki, bu gün narkomaniya təkcə bəşəriyyətin sağlamlığına, mənəvi dünyasına deyil, qlobal dünya iqtisadiyyatına da narkoticarət yolu ilə ağır və sağalmaz yaralar vurmaqdadır: “Belə ki, narkotik maddələrin qanunsuz dövriyyəsi cinayətkarlığın artmasına səbəb olmaqla yanaşı, həm də terrorizmin maliyyə mənbəyi kimi beynəlxalq təhlükəsizliyə də ən ciddi təhdidlərdən biri kimi çıxış edir. Mütəxəssislərin hesablamalarına görə, narkotiklərin qanunsuz dövriyyəsindən hər il on milyardlarla dollar gəlir götürülür ki, bu yol ilə əldə edilən qanunsuz gəlirlər də yeni müharibə və münaqişə ocaqlarının, ayrı-ayrı terrorçu mərkəzlərin, mütəşəkkil cinayətkar qrupların yaradılmasına, silah alverinin daha da güclənməsinə və digər cinayətkar aksiyalara sərf olunur.

Ölkəmiz öz müstəqilliyinə qovuşduqdan sonra bütün sahələrdə olduğu kimi, narkomanlıq və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində də məqsədyönlü, ardıcıl və təxirəsalınmaz addımlar atmışdır. 1992-ci ildə Azərbaycan Respublikası BMT-yə tamhüquqlu üzv olduqdan sonra “Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında” BMT-nin 1988-ci il Konvensiyasına qoşulmuşdur. 1998-ci ildə isə Azərbaycan Respublikası BMT-nin “Narkotik vasitələr haqqında” 1961-ci il və “Psixotrop maddələr haqqında” 1971-ci il Konvensiyalarına qoşulmuşdur. Həmçinin, ölkəmiz narkotiklərlə mübarizədə beynəlxalq əməkdaşlığın aktuallığını nəzərə alaraq, cinayətkarlıq və narkotiklərlə mübarizə sahəsində dünyanın bir sıra dövlətləri ilə ikitərəfli və çoxtərəfli sazişlər, memorandumlar imzalamışdır.

Müstəqilliyimizin ilk illərindən başlayaraq ulu öndər Heydər Əliyev narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edərək, cəmiyyətimizin sağlam inkişafının vacibliyini vurğulayaraq demişdir: “Narkomaniya və narkobizneslə mübarizə hər bir ölkənin, xalqın, millətin fiziki və əqli sağlamlığı uğrunda aparılan mübarizədir””.

**Fuad BİLƏSUVARLI**




# Göyçay sakini qızının pensiyasının qanunsuz olaraq kəsildiyini iddia edir

## Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyi isə qarşı tərəfin ittihamlarını qəbul etmir...

**Göyçay rayonu, Çərəkə kənd sakini İsrafilova Lalə Eyvaz qızı tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikatətçi iddia edir ki, övladının pensiyası qanunsuz olaraq kəsilib:**

"Övladım Əlili Türkan Adil qızı 2010-ci ildə anadan olub. Anadangəlmə bud, çanaq çıxığından əziyyət çəkir. 2017-ci ildə əməliyyat olundu. 2019-cu ildə uşağımın xəstəliyinə görə pensiya aldım. 2024-cü ilin iyun ayında isə pensiyası qanunsuz olaraq kəsildi".

Məsələ ilə bağlı Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Tural Qurbanovla əlaqə saxladıq. O, bildirdi ki, Göyçay rayon sakini 30.12.2010-cu il təvəllüdlü Əlili Türkan Adil qızı ilə bağlı qeydiyyat üzrə tibb müəssisəsi tərəfindən rəsmiləşdirilən "forma-88" göndərişində ekspertiza üçün önəmli məlumatlar ətraflı qeyd edilmədiyinə görə elektron sistem üzərindən onun əlilliyinin qiymətləndirilməsi mümkün olmayıb: "Bu səbəbdən də vətəndaş Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin həkim-eksperti tərəfindən əyani müayinə ediləcək və qanunvericiliyə uyğun olaraq onun əlilliyi ilə bağlı müvafiq qərar veriləcək".

**Jalə FAMİLQIZI**

# Lənkəran sakini nazirlikdən şikayətçidir

## "Kənd Təsərrüfatı Nazirliyi süni mayalanma ilə doğulan hər buzova görə 100 manat verməlidir, amma..."



**Lənkəran rayonu, Girdəni kənd sakini Əliyev Əflatun Aşur oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Ə.Əliyev Kənd Təsərrüfat Nazirliyindən (KTN) şikayətçidir:**

"Mən, Əliyev Əflatun Aşur oğlu, yazaraq sizdən xahiş edirəm ki, problemimi işıqlandırasınız.

Bildirim ki, Girdəni kəndində kiçik bir heyvandarlıq təsərrüfatım var. Heyvanlarım süni mayalanma, texniki mayalanma nəticəsində buzovlar doğub. Qeyd edim ki, süni mayalanma ilə buzovlar doğulandan sonra rəsmi qurumlar tərəfindən onlara "birka"lar vurulub. Həmin "birka"lar əsasında Kənd Təsərrüfat Nazirliyi hər buzova görə 100 AZN (manat) pul ödəniş etməlidir. Lakin bir ildən artıqdır ki, bu məbləğ hesaba köçürülmür.

Hər dəfə maraqlandığımız zaman "bu ay, o ay", - deyib bizi gözlədirlər. Niyə bu qədər gecikdirirlər? Onlar üçün 100 manat pul elə böyük bir məbləğ deyil axı.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

# Xocalıda bərpa işləri görən "Dostluq" şirkəti işçilərə "atıb"?

**Ağdam rayon sakini Novruzov Əhliman Məhəmməd oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi Xocalı şəhərində bərpa işlərini həyata keçirən "Dostluq" şirkətinin onu işlətsə də, pulunu vermədiyini iddia edir:**

"Mən, Novruzov Əhliman Məhəmməd oğlu, xahiş edirəm ki, şikayətimi paylaşasınız.

Artıq 2 aydır Rusiyada yaşayıram. 2016-cı ildən 2022-ci ilə qədər hərbidə düşmənlə üz-üzə xidmət etmişəm. 2024-cü ildə Xocalıda "Dosluq" şirkətində işləmişəm. İşlədiyim şirkətin mənə 1500 manat borcu qalıb. Bu barədə Xocalı və Ağdam prokurorluqlarına müraciət etmişəm. Lakin işimə baxan yoxdur.

Qarabağda bizim sayəmizdə milyonlar qazanırlar, bizim pulumuzu isə vermirlər. Biz işlədiyimiz vaxtlar orada müdir Elçin adlı şəxs idi. Mən haqqım olan 1500 manatı ondan istəyirəm".



## Ağdam sakini Əhliman Novruzov: "Şirkət mənə borclu olduğu 1500 manatı vermir"

Məsələ ilə bağlı şirkətin Elçin adlı keçmiş direktoruna sorğu göndərdik. Bundan bir neçə saat sonra yeni direktor Mehdi Babayev bizimlə əlaqə saxlayaraq, mövqeyini bildirdi: "Redaksiyanıza şikayət edən şəxslər - iki qardaş şirkətimizdə işçi olublar. Xocalı şəhərində bərpa işləri ilə məşğul olublar. Daha sonra qərətçilikdə şübhəli bilinərək, işləri polisə düşmüşdür. Ilkin araşdırma olaraq sizə cavab verə bilərik ki, şirkətin o şəxslərə heç bir borcu yoxdur. Yəni əmək haqlarını tam alıblar. Nə vaxt da istəsələr, yaxınlaşıb şirkətdən ətraflı məlumat ala bilərlər".

**Jalə FAMİLQIZI**

# "Vətəndaşları dövlətdən narazı salırlar"

## Qazax sakini Məşğulluq Agentliyindən şikayətçidir

**Qazax rayonu, Hüseynbəyli kənd sakini Mehtiyev Vüqar Ebrus oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. V.Mehtiyev Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qərarından narazılığını bildirir:**

"Mən, Mehtiyev Vüqar Ebrus oğlu, yazaraq bildirirəm ki, hazırda işsizəm, 2020-ci ildə müharibədə ağır yaralanmışam. Bu günə qədər də müalicələrimi davam etdirirəm. Əməliyyat olunmalıyam, amma maddi imkanım çatmır. "Yaşat Fondu"na müraciət etsəm də, kömək etmədi. Əlilliyim də təsdiqlənmir. Xəstəxanalar da sığorta ilə beyin əməliyyatına yaxın durmurlar. Çarəsiz və əlacsız vəziyyətdə hara qədər gedə biləcəyimi bilmirəm...




Qeyd edim ki, 2021-ci ilin sentyabr ayından Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyində heyvan nöbəsində idim.

Bir neçə gün bundan qabaq kredit üçün müraciət etmişdim. Adıma VÖEN açdırdım. Dərhal Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyindən zəng vurub bildirdilər ki, adına VÖEN acıldığı, yəni kreditə müraciət etdiyiniz üçün heyvan növbəniz dayandırıldı.

Adını çəkdiyim qurumun məqsədi nədir? Niyə imkan vermir ki, dövlətin bizə bəxş etdiyi bu kimi faydalı işlərdən faydalanaq?! Biz vətəndaşları çox çıxılmaz vəziyyətdə qoyurlar. Nə edim, hansı quruma müraciət edim? Ailəmi saxlamaq üçün nə etməliyəm?..."

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

Ötən əsrin 70-ci illərində Azərbaycanda milli teatrın yaranması mədəniyyətimizin tarixində çox böyük hadisə oldu. Hansı ki, 1873-cü il martın 10-da Bakı realnı məktəbinin teatr həvəskarları truppası tərəfindən M.F.Axundzadənin "Sərgüzəşti-vəziri-xani Lənkəran" komediyası tamaşaya qoyuldu. Bu şərəfli işdə H. Zərdabi və N. Vəzirov mühüm rol oynamışdılar. Elə bu tamaşa ilə də Azərbaycanda milli teatrın əsası qoyuldu. Belə ki, hər il martın 10-u Azərbaycanda Milli Teatr Günü kimi qeyd edilir.




# 10 mart Milli Teatr Günüdür

## Teatr rəhbərləri bu gün haqda danışdılar

Sözsüz ki, Azərbaycanda teatr sənəti qədim ənənələrə malikdir. Xalq arasında müxtəlif meydan tamaşaları, kukla teatr tamaşaları (”Maral oyunu”, ”Kilimarası”), bayram tamaşaları (”Kos-Kosa”), dini səciyyəli tamaşalar (”Şəbih”) və s. geniş yayılmışdı. Hələ XVII əsrin ikinci yarısında Azərbaycanda olmuş fransız səyyahı Şarden İrəvanda qonaq olarkən burada ona üç hissəli bir tamaşa göstərmişdilər. Bu tamaşa Şardenə o qədər xoş təsir bağışlamışdı ki, onu ”Şərqin operası” adlandırmışdı.

Əlbəttə, milli teatrımızın inkişafında məşhur xeyriyyəçi-mesenat H.Z.Tağıyevin böyük xidməti oldu. O, Bakı şəhərində ilk teatr binası inşa etdirdi. Tezliklə Azərbaycan səhnəsinin Cahangir bəy Zeynalov, Hüseynqulu Sarabski, Mirzağa Əliyev, Hüseyn Ərəblinski, Ülvi Rəcəb, Abbas Mirzə Şərifzadə, Mustafa Mərdanov, Məmmədrza Şeyxzamanov, Ağasadıq Gəraybəyli, Əliağa Ağayev, Lütfəli Abdullayev, Nəsibə xanım Zeynalova, Mərziyə xanım Davudova kimi yüzlərlə simaları yetişdi.

Azərbaycanda teatr sənətinin inkişafında Hacıbəyov qardaşlarının da böyük əməyi olmuşdur.

AXC-nin yaranması milli teatrın fəaliyyətində də canlanmaya səbəb oldu. Dövlətin fəal köməyi və müdaxiləsi nəticəsində Azərbaycan teatrının inkişafında mühüm keyfiyyət dəyişiklikləri baş verdi. Teatrın repertuarına Azərbaycan tarixi və milli azadlıq mübarizəsi ilə bağlı yeni əsərlər gəldi. Cümhuriyyət hökumətinin bu sahədə məqsədyönlü addımlarından biri də Azərbaycan Dövlət Teatrının təşkili oldu. Bu, Azərbaycan peşəkar teatrının dövlət teatrı statusu alması demək idi. Bu teatrın pərdələri ilk dəfə 1918-ci il noyabrın 4-də N.Nərimanovun ”Nadir şah” faciəsinin tamaşası ilə açılmışdı.

Beləliklə, Milli Teatr Günü ilə bağlı teatr rəhbərlərinin fikirlərini öyrəndik:

### “Gündən-günə teatra sevgi, məhəbbət artır”

**Rus Dram Teatrının rəhbəri Ədalət Hacıyev:**



“Bizim mədəniyyətimiz təkcə bu gün deyil, keçmişdə də həmişə yüksək səviyyədə olub. Teatr da incəsənətimizin, mədəniyyətimizin bir qoludur. Bildiyiniz kimi, mən Səməd Vurğun adına Azərbaycan Rus Dram Teatrının rəhbəriyəm. Bizim teatrda tamaşalar rus dilində oynanılır. Premyerada, tamaşalarımızda öz caamatımızı, xalqımızı üzügülər, şən görürəm. Gündən-günə teatra sevgi, məhəbbət artır. Xalqımın rifahını yaxşı görürəm. Çox sevinirəm. Mənim işim qonaqlı-qaralıdır. Beşinci, altıncı, bazar günləri tamaşaçı mənim üçün qonaqdır. Mən tamaşaçıların teatra münasibətini çox müsbət görürəm. Onlar hansı əhval-ruhiyyədədirlər, onları görürəm.

Biz teatrda işləməyi bacaran, işləyən və işini bilən adama hər cür şərait yaradırıq. Ona görə də rəhbərlik etdiyim Rus Dram Teatrında kollektivdə bir-birimizlə yaxşı anlaşırıq və bir ailə kimiyik. Ailənin böyüyü evdə necədirsə, biz də o cürük. Düşünürəm ki, o cür də olmalıdır.

Mədəniyyət və incəsənət xadimlərinin yaradıcı axtarışlarına mənəvi dayaq olmaq ümummilli liderimiz Heydər Əliyevin həyat tərzinə çevrilmişdi. Bəstəkar, yazıçı, şair, aktyor, müğənni, rəssam əməyinə verdiyi yüksək qiymət sayəsində ölkəmizin yüzlərlə sənətçisi xalq artisti, xalq rəssamı, xalq şairi, xalq yazıçısı, əməkdar incəsənət xadimi, əməkdar artist, əməkdar rəssam, əməkdar mədəniyyət işçisi kimi müxtəlif fəxri adlara layiq görülmüşdür.

Birmənalı olaraq demək lazımdır ki, Heydər Əliyevin mədəniyyət siyasəti bu gün hörmətli prezidentimiz cənab İlham Əliyev tərəfindən son dərəcə uğurla davam etdirilir. 10 mart Milli Teatr günü kimi qeyd olunur. Mən mətbuatınız vasitəsilə bütün teatr xadimlərini, teatrsevərləri ürəkdən təbrik edirəm”.

### “Teatrın incəsənət sahəsində rolu əvəzedilməzdir”

**Musiqili Komediya Teatrının rəhbəri Əliqismət Lalayev:**



“Teatr həyatımızın aynasıdır. Hələ yarandığı zamandan belə, teatr insanlar üçün bayram, görüş yeri, istirahət yeri olub. Ən yaxşı bəstəkarlar teatr üçün ən yaxşı musiqilərini bəstələyib, ən yaxşı yazıçılar teatr üçün dram əsərlərini, pyeslərini yazıblar, ən yaxşı rəssamlar teatr üçün rəsmlərini çəkiblər. Ona görə, teatrın incəsənət sahəsində rolu əvəzedilməzdir. Yəni incəsənətdə ən böyük profitlərdən birincisi mən deyərdim ki, teatrdır. Bəlkə ona görə belə deyirəm ki, bütün ömrümü teatra həsr etmişəm. Mən hələ uşaqlıqda dram dərnəklərində olurdum. Onda 12-13 yaşlarım var idi. Zaman-zaman həmişə teatra bağlı olmuşam. İstər məmur olduğum vaxtlarda teatrlar mənim nəzarətimdə olub, ölkə teatrlarının fəaliyyətinə mən rəhbərlik etmişəm, indi də biz Musiqili Teatrda çalışırıq.

Musiqili Teatrın ölkə teatrları arasında xüsusi yeri var. Tamaşaları, aktyorları, orda yaradılan iş prosesi ilə tam fərqli teatrdır. Mən bunu tam cəsarətlə deyirəm. Düşünürəm ki, teatrsevərlərin hamısı bilir ki, Musiqili Teatrda nələrə baxa bilərlər, nələr daha çox xoşlarına gəlir.

Bizim işin qiymətini tamaşaçı verir. Biz teatr haqqında ən gözəl sözləri söyləyə bilərik. Mən çox istərdim ki, tamaşaçılar özləri desinlər ki, teatr onların həyatında nədir...

Mənim bircə arzum var ki, teatr hər kəsin həyat tərzinə çevrilsin. Hər kəs bilsin ki, bu həftə heç olmasa yeni bir tamaşaya baxacaq. Əlavə etmək istəyirəm ki, bu gün Azərbaycan teatrları yaxşı mənada bir-birilə rəqabətdə yaşayırlar. Hər gün yeni tamaşalar yaranır, hər gün yeni afişalar, qastrollar, rayon teatrlarının Bakıya səfərləri, teatrların rayonlarda, bölgələrdə çıxışları - bu tədbirlər insanların həyatına dinamika gətirib. İnanın ki, bu hərakat festival şəkilində keçirilib. Nə qədər gözəl həvəslə festivalda iştirak etdim.

Bu gün Azərbaycan teatrı dünyanın müxtəlif yerlərinə qastrollara gedir. Yəni indi Azərbaycan teatrının səsi xaricidən, müxtəlif ölkələrdən, festivallardan, qastrollardan gəlir. Buna görə çox sevinirəm.

Mən milli teatrımıza nə arzulayardım? Biz tamaşalarımızı necə insanları sevərək, tamaşaçıları düşünərək hazırlayırıq və bunun arxasında tamaşaçılara nə qədər sevgimiz dayanır, arzu edərdim ki, insanlar da teatrları beləcə sevsinlər. Bizim qədər sevsinlər. Onda mənə elə gəlir ki, qarşılıqlı sevgi çox uğurlarla nəticələnə bilər”.

### “Tamaşaçı baxımından heç bir şikayətimiz yoxdur”

**Kukla Teatrının rəhbəri Rəşad Əhmədzadə:**



“Keçən il Azərbaycan Milli Teatrının 150 illiyi oldu. Hər halda bu 150 ildə bir çox sənətkarlar yetişib, yaşayıb. Teatr dövrün ən ağır vaxtlarında belə, yenə də itməyib, ölməyib. İndi bəzi adamlar deyir ki, teatr ölüb. Zamandan-zamana asılı olaraq, nəsə bir çətinliklər olub. Ancaq şükür Allaha, öhdəsindən gəlinir.

Kukla Teatrına gəldikdə, bu il 93 yaşı oldu. Artıq 94 yaşa keçirik. Bilirsiniz, 1931-ci ildə Mollağa Bəbirli tərəfindən yaradılıb. Hərdənbir biz xarici teatrları nümunə göstərmək istəyəndə, mən bununla razılaşmıram. Çünki Azərbaycan Kukla Teatrının özünün tarixi var. Yəni tarix etibarilə hətta Obraztsov teatrından yaşda böyükdür. Hərdən dəyişik salırlar. Deyirlər ki, Mollağa Bəbirli Obraztsov teatrına gedib, orda Sergey Obraztsovla görüşüb, teatrı təşkil edib. Yəni Mollağa Bəbirli Sankt-Peterburqda Emmanuellə görüşüb. Bütün Rusiyada ən məşhur Mariya Teatrıdır. Yəni onunla nələrisə məsləhətləşib və fəaliyyətə başlayıb.

1964-cü ildən də dövlət statusu verilib. Belə inkişaf edərək, bu yerə gəlmişik. 1997-ci ildən Ulu öndərin sərəncamıyla Azərbaycanda bir neçə teatra - Milli Dram Teatrına, Rus Dram Teatrına, Musiqili Teatra, Gənc Tamaşaçılar Teatrına, bir də bizə aparıcı status verilib. Düzdür, bu teatrdan ikisi akademikdi, biri millidir. Hər halda, yəqin bizə də növbə çatar.

Repertuarda 44 tamaşamız var. Artıq iki tamaşa da əlavə olunub. İndi hazırda 46 tamaşamız var. Biri var, tamaşanın adı var, özü yoxdur, amma bizdə tamaşanın hamısı var.

Hər il təxminən 4-5 tamaşa təhvil veririk. Yeni il şənliyi üçün, Novruz Bayramı üçün hazırlanmış tamaşaları hesablamasaq, 4-5 tamaşa təhvil veririk. Tamaşaçı baxımından heç bir şikayətimiz yoxdur. Biletimiz ancaq kassada satılır. Heç bir yerə məktubla, xahişlə, hansısa digər ünvana, məcburi bilet satmırıq. Satılan biletlərin hamısı kassadan alınır.

İncəsənət Universitetində nə Kukla Teatrı rejissoru, nə Kukla Teatrı fakültəsi, hətta nəinki fakültə, heç bir kurs da yoxdur. Təsəvvürünüzə gətirin ki, bizim Kukla Teatrında fəaliyyət göstərən aktyorlar digər teatrlarda çalışan gənc aktyorlar kimi eyni universitetin fakültələrini bitiriblər. Kino aktyorluğu və yaxud dram aktyorluğu, musiqi teatrı aktyorluq fakültəsini bitirib, sonra bizə gəlirlər. Burda da təxminən 8-9 ay onlar kuklalarla məşqlər edirlər.

Azərbaycanda ümumilikdə 5 kukla teatrı var. Bizim aktyor və aktrisalarımız da bu 5 teatrda yetişir. Kukla aparıcılıq ustası kimi, kukla idarə edən bir aktyor, aktrisa kimi ancaq Kukla Teatrında yetişirlər.

Arzularımız çoxdur. İnşallah həyata keçər. Fakültə də olmasa, çox istərdik ki, bir kurs olsun”.

**Hazırladı:**
**Fuad BİLƏSUVARLIQ**

# Diyə

**Turalgil ailədə iki qardaş, bir bacı idilər. Tural sakit, həlim xasiyyətli, dalaşmağı sevməyən, dostcanlı, canıyanan biri idi. Əsas hobbisi kitab oxumaq, təbiət qoynunda təklikdə gəzmək, oğlan uşaqlarına bir o qədər də xas olmayan gülə-çiçəyə vurğunluğu idi. Buna baxmayaraq, qohum-qardaş Turalı daha çox sevirdilər.**



Böyük qardaşı Turalın tam əksinə, dalaşmağa meylli, "qabağından yeməyən", tez özündən çıxan biri idi. Ailənin ilki olduğundan xeyli ərköyün böyümüşdü. Necə deyərlər, yetənə yetir, yetməyənə bir təpik atırdı. Tural qardaşından on yaş kiçik idi, arada bacıları doğulmuşdu.

Hər şeyin yaxşı getdiyi günlərin birində Turalgilin ailəsinə çox dəhşətli bəd xəbər gəldi. Turalın böyük qardaşını naməlum şəraitdə kimlərsə qətlə yetirmişdi. Bu hadisəni kimin törətməsi naməlum idi. Şahidlər yox idi. Hadisədən çox gec xəbər tutulduğundan hadisə yerində də kiməsə rast gəlinməmişdi. Turalgilin ailəsi qatilin tapılması üçün çox çalışsalar da, istintaq bir iş görə, qatilin kim olmasına aydınlıq gətirə bilmirdi. Bunun əvəzinə, gündə bir şayiə yayılırdı.

*(Əvvəli ötən sayımızda)*

Artıq Tural kənddən şəhərə gəlmişdi. Sanki bir dünyadan başqasına köçmüşdü. Demək olar ki, tanımadığı, onun haqqında heç bir məlumata malik olmayan insanlar arasına düşmüşdü. İndi o görürdü ki, heç kim ona iradla baxmır, heç kim ondan bir cinayət törətməsini - qardaşının qisasını almasını gözləmir. Artıq evlərində illərlə təkrarlanan qisas söz-söhbətindən də xilas olmuşdu. Hətta indi onun, kənddəki kimi, hər addımını izləyən də yox idi. Düzdür, demək olar, hər gün ailəsi ilə telefon əlaqəsi saxlasa da, bu, nəzarətdən daha çox, qayğı və narahatlıqla bağlı idi.

Tural həyatında ilk dəfə ürəkdən gülə, ucadan danışa, sevinə bilirdi. Dünya yaşamaq üçün ona daha xoş görünməyə, həyatın qədrini indi-indi hiss etməyə başlamışdı. Hətta ətrafında boz və qaradan başqa rənglər olduğunun fərqinə varmışdı. Tural qrup yoldaşları ilə ünsiyyətdə olanda ona elə gəlirdi ki, o, yenidən doğulur, bu günə qədər yaşamadığı günləri yaşayır...

Tural universitetdə ilk dəfə bir stolda yanaşı oturduğu qızı altdan-altdan süzdü. Qızın çox yaraşıqlı olduğunun fərqinə vardı. Elə bil həyatında ilk dəfə idi ki, qız görürdü. Qız həqiqətən gözəl və həm də dilli-dilavər idi. Şəhərdə böyüdüyündən, utancaqlığı yox idi. Buna görə, təzəcə tanış olduğu Turalla dil tapdı və tez də dostlaşdılar. Əslində, Tural da ilk gündən qızın xoşuna gəlmişdi. Beləliklə, ilk gündən gənclər arasında bağlılıq yaranmağa başladı. İndi Tural hər fürsətdə qızla daha çox bir yerdə olmaq, onunla daha çox ikilikdə söhbətləşmək istəyirdi. Tural hiss edirdi ki, onu görmək üçün universitetə getməyə tələsir, gözləri ilə onu axtarıb tapmayana kimi rahat olmurdu. Yaşadığı hisslər Tural üçün təzə və anlaşılmaz idi. O, bunu bir anlam verə bilməsə də, bu yaşantılardan həzz alırdı. Şəhərdə hər şey onun üçün ilk və yeni olduğundan, bunu da şəhər həyatının bir xüsusiyyəti kimi qəbul edirdi.

Şənbə və bazar günləri universitetdə dərs olmurdu. Uşaqlar bundan çox sevinirdilər. Tural isə, əksinə, bu iki günü kənddəki günləri kimi yaşayır, universitetdə yenicə tanış olduğu qızı görmək üçün bazar ertəsini, dərs həftəsinin başlamasını səbrsizliklə gözləyirdi. İstirahət günləri qızla şəhərdə görüşmək nə ağlına gəlirdi, nə də buna cəsarət edirdi. Tural üçün əsl istirahət günləri dərsə getdiyi günlər idi. Parta yoldaşı olan qızla hər cür mövzudan - elmdən, mədəniyyətdən, dünya xəbərlərindən sevə-sevə danışırdılar.- Tənəffüsdə belə, başqa uşaqlar kimi sinfi tərk etmir, mümkün qədər birlikdə vaxt keçirməyə çalışırdılar.

Tural universitetin yataqxanasında qalırdı. Yaz təzəcə gəlmişdi. Pəncərəyə düşən günün şüaları bir qayda olaraq birbaşa yatağında yatan Turalın üzünə düşürdü. Tural hər gün üzünə düşən gün işığından ayılırdı. Sanki Günəş bir ana kimi Turalı yuxudan oyadır, dərsə gecikməyə qoymurdu. Növbəti istirahət günlərindən birində Tural yenə də səhərin şirin yuxusundan Günəşin üzünə düşən işığından oyandı. Gözünü açan kimi pəncərədən düşən işıq gözlərini qamaşdırdı. Tural dərhal gözlərini yumdu. Ona elə gəldi ki, Günəş onunla zarafatlaşır. Özündən asılı olmayaraq, gülümsəməyə başladı. Öz qəlbində indiyədək yaşamadığı bir hissin baş qaldırdığının fərqinə vardı. Bu hiss sevinc qarışıq xoşbəxtlik hissi kimi idi. Tural səhər-səhər onu bürüyən bu xoş həyacanın nə ilə bağlı olmasını tapmağa çalışdı. O, yatağında sevinir, ürəyi sürətlə çırpınır, həm də darıxma hissi keçirirdi. O, kimin üçün və niyə darıxır? Tural bu haqda düşünməyə başladı. İlk öncə kəndi və evdəkiləri yadına saldı, amma tez də darıxmağının onlarla bağlı olmadığını anladı. Sonra dostlarını bir-bir yadına saldı, bəlkə hansısa dostuna görə darıxır. Amma onlarla bağlı darıxmadığının da fərqinə vardı. Sonra şəhərin xoşuna gələn, tez-tez gəzməyə getdiyi yerlərini beynindən keçirdi. Bəlkə, harasa getmək istəyir?! Amma tez də bu qərara gəldi ki, bunlar da onu bu cür həyacanlandırmır. Tural düşündükcə daha da darıxır, həm də ürəyi sevinclə dolurdu. O, elə bir adama görə darıxdığını başa düşürdü ki, həmin adam onda böyük sevinc, yaşamaq həvəsi, gələcəyə ümid və xoşbəxtlik hissi yaradır. Bəs, bu adam kimdir? Tural öz-özünə sual verirdi. Axı, nə üçün səhər-səhər həm sevinir, öz-özünə gülümsəyir, xoşbəxtlikdən qanad açıb uçmaq istəyir, həm də darıxmaq hissi az qalır onu ağlatsın?! Onu bu hala salan nədir? Sevinclə kədərin qarışığından ibarət hiss Turalı əməlli-başlı narahat etməyə başladı. O, darıxdığı adamla tezliklə qovuşmağa dərin bir ehtiyac hiss etdi. Qeyri-müəyyənlikdə çabalayan Turalın yadına tələbə yoldaşı, bir neçə həftədir universitetdə yanaşı stolda oturduğu İnci düşdü. Tural az qala "evrika" qışqıracaqdı. Amma "ura, tapdım" deyə bağırdı. Yaxşı ki, otaqda ondan başqa kimsə yox idi. Bir anda Tural anladı ki, əslində, o, İncini görmək, onunla bir yerdə olmaq istəyir.

> Tural universitetin yataqxanasında qalırdı. Yaz təzəcə gəlmişdi. Pəncərəyə düşən günün şüaları bir qayda olaraq birbaşa yatağında yatan Turalın üzünə düşürdü. Tural hər gün üzünə düşən gün işığından ayılırdı. Sanki Günəş bir ana kimi Turalı yuxudan oyadır, dərsə gecikməyə qoymurdu. Növbəti istirahət günlərindən birində Tural yenə də səhərin şirin yuxusundan Günəşin üzünə düşən işığından oyandı. Gözünü açan kimi pəncərədən düşən işıq gözlərini qamaşdırdı...

Tural axtardığı sualın cavabını tapdıqdan sonra rahatlanmaq əvəzinə, həyacanı bir qədər də artdı. Ürək döyüntüləri sürətləndi. Sifətinin qızardığını, bütün bədənini xoş bir hərarət bürüdüyünü, həyatda özünün öz qarşısına qurduğu bütün manelərin bir anda uçduğunun və ətrafının al-əlvan rəngə boyandığının fərqinə vardı. Tural dərhal yerindən qalxıb pəncərəyə yaxınlaşdı. Pəncərəni açıb, yaz havasını ciyərlərinə çəkdi və birdən İncini sevdiyini, ona vurulduğunu başa düşdü. Əslində, Tural ilk dəfə idi ki, belə bir hiss yaşamağa başlamışdı. Bunun məhəbbət olduğunu başa düşmək çətin deyildi. Bu, sevinc, xoşbəxtlik, azacıq qəm və darıxma hissinin qarışığından ibarət "kokteyl" kimiydi. Qəm və darıxma onu İnci ilə görüşməyə sövq edirdi. Sevinc və xoşbəxtlik isə bu görüşün onun üçün çox böyük bir mənəvi güc verəcəyindən xəbər verirdi.

Məktəbdə oxuduğu illərdə çoxlu məhəbbət romanları oxusa da, özü belə bir hiss yaşamadığından, həmin romanlar bir o qədər də onu təmin etməmişdi. Buna görə, daha çox macəralar və fantastika ilə bağlı bədii əsərlərə meyl edirdi. İndi isə, elə bil, bütün məhəbbət romanlarını stolunun üstünə tokmüşdülər. Kitabların qəhrəmanları Məcnun, Kərəm, Yusif və neçə-neçə eşq qəhrəmanları sanki kitablardan çıxıb, Turalı əhatə etmişdilər. İndi Tural onları başa düşür və onları sevməyə başlayır, onlarla dərdini bölüşürdü. O da Kərəm kimi yanmağa, Yusif kimi zindanların qaranlıqlarında əzab çəkməyə və Məcnun kimi dəli olub səhralara düşməyə hazır idi. Turalın ilk dəfə yaşamağa başladığı hissi getdikcə güclənirdi. Nəhayət, elə bir səviyyəyə gəlib çatdı ki, Turala elə gəlirdi, artıq İncisiz yaşaya bilməz. Birdən nədənsə İncidən ayrılmaq ehtimalı gözünün qabağına gəldi. Bu zaman göz yaşlarını saxlaya bilmədi, uşaq kimi ağlamağa başladı. Tural anladı ki, o, İncisiz yaşaya bilməz. İndi o, bu hisslərinə bir ad qoymaq istəyirdi. İndiyədək belə bir həyacan yaşamadığından bilmirdi ki, ona nə olur, nə baş verir. İndi İnci bir an da olsun, onun yadından çıxmırdı. Onun hər bir baxışı, hər bir sözü onun yadına düşür, onda əvvəlkilərdən fərqli təəssürat yaradırdı.

Tural yerə-göyə sığmırdı. Dərhal İncini görmək, onunla yan-yana, göz-gözə olmaq istədi. Özünü İncigilə getməkdən güclə saxladı. Zatən, həm şəhəri yaxşı tanımır, həm də İncinin ünvanını da dəqiq bilmirdi. Sadəcə, təxminən şəhərin hansı səmtində qaldıqlarını öyrənmişdi. Belə böyük və qarışıq bir şəhərdə səmtə görə adam axtarıb tapmaq dəryaya düşən iynəni tapmaq kimi bir şeydir. Əvvəl düşündü ki, gedib o həndəvərdə gözləsin, bəlkə təsadüfən İnci gəzməyə çıxar, həmin vaxt onunla görüşə bilər. Amma birdən yadına düşdü ki, İnci valideynlərinin ona təklikdə şəhərə buraxmalarını, universitetə də nəzarət altında gedib-gəldiyini demişdi. Ona görə, bu fikrindən vaz keçdi. Sonra ağlına İnciyə məktub yazmaq gəldi. Oturub məktub yazmağa başlamışdı ki, bunun nə qədər gülünc və yersiz olduğunu anladı. Çünki ertəsi gün yenidən İnci ilə bir yerdə olacaqdı.

Amma bu bir gün Tural üçün illər kimi gəldi. O, həsrət hissi yaşamağa başlamışdı. Qəribsəmə hissi də bir tərəfdən onun boğazından yapışmışdı. Tural nə edəcəyini, sabaha qədər nə edəcəyinə kəsdirə bilmirdi...

*(Ardı var)*

**AZAD**

# O, öz adını doğruldur

**Fərhad Cahangir oğlu Əliyev 1983-cü il oktyabr ayının 24-də Bakıda anadan olub. Ata Cahangir Camal oğlu Əliyev (1950-1993) neftçi idi, Sənqəçal terminalında işləyirdi. Ana Səkinə Lətif qızı Əkbərova-Əliyeva çox bacarıqlı, hünərvər, öz sənətinə vurğun olaraq 34 il Bakıdakı məşhur Volodarski adına tikiş fabrikində çalışıb.**



Bu mehriban, səmimi, zəhmətkeş, nümunəvi ailədə üç övlad-iki oğul, bir qız boy ataraq, layiqli tərbiyə, təhsil ilə həyata, cəmiyyətə vəsiqə alıblar. Fərhad üçüncü övladdır. O, 1989-cu ildən Bakıdakı 251 saylı ümumtəhsil məktəbdə oxuyub. 1993-cü ildən, III sinifdən Bakı Xoreoqrafiya Məktəbində təhsilini davam edib. Burada dörd il klassik rəqs sənəti üzrə təhsil alıb. İxtisas üzrə müəllimləri Roza Əliyeva və Lyudmila Qasımova olub. Fərhad 1997-ci ildən, VIII sinifdən milli rəqs sənəti üzrə oxuyub və 2001-ci ildə böyük uğurla təhsili başa vurub. Bütün fənlərdən əla qiymətlər alıb. Artıq onun üçün hər şey gün kimi aydın idi, ömrünü çox sevdiyi, lakin çətin bir işə, rəqs sənətinə həsr edəcəkdi. Odur ki, burada o, bacardığı qədər ixtisas müəllimi, xalq artisti Yusif Qasımovdan sənətin bütün incəliklərini, nizamı, qaydaları və sirlərini öyrənməyə çalışırdı.

Haşiyə: "Bu sətirlərin müəllifi Əhsən Rəhmanlı olaraq bildirirəm ki, Fərhadgilin təhsil aldığı zaman, 1997-2000-ci illərdə BXM-də Yusif Qasımovun sinfində konsertmeyster idim. Fərhadın istedadı, zirəkliyi, dərslərə ciddi yanaşması, bacarığı, müəllimin verdiyi tapşırıqları dərhal, layiqincə yerinə yetirməsi, yoldaşlarından seçilməsi, bundan əlavə rəftarı, əxlaqı, tərbiyəsi indi də yadımdadır. Son zamanlar hər dəfə mən ona deyəndə:-Fərhad, məktəb illərində yaxşı uşaq idin-o, ürəkdən gülür. Bəli, Fərhad da gözlərimiz qarşısında əsl rəqqas kimi yetişirdi".

Onu da qeyd etməliyik ki, Fərhad BXM-də xalq rəqs sənəti fənni üzrə xalq artisti Xumar Zülfüqarovanın sinfində dərs alıb.

F.Əliyev 1997-ci ildə BXM-nin xəttilə Türkiyənin Ankara, İstanbul və digər şəhərlərində konsertlərdə olub. Bundan başqa o, oxuduğu məktəbin özündə verilən konsertlərdə, tədris illərinin sonlarındakı imtahanlarda, şəhərdəki bədii-kütləvi tədbirlərdə xüsusi bacarıqla rəqs edərək daha da bərkiyirdi.

Fərhad T.İsmayılov adına uşaq və gənclərin yaradıcılıq mərkəzinin rəqs kollektivinin də məşqlərinə və konsertlərinə gedirdi. Həmin zaman burada rəqs ansamblının rəhbəri Nəriman Kərimov olub. Əziz oxucular, siz uşaqda sənət həvəsinə baxın. O, Uşaq Filarmoniyasında Etibar Zeynalov və assistent Yaqubun rəhbəri olduğu rəqs ansamblının da üzvü idi. Hələ Nizami rayon uşaq və gənclərin yaradıcılıq mərkəzindəki özfəaliyyət rəqs ansamblında da oynayırdı. Burada uşaqların rəqs rəhbəri Fərhad Vəliyev və Fərman Məmmədov idi. Fərhad Əliyevin özfəaliyyət ansamblılarındakı fəaliyyəti 1988-1994-cü illərə aid idi. O, həmin ansamblların tərkibində 1993-cü ildə Türkiyənin İzmir, 1994-cü ildə Adana şəhərlərində sənət səfərlərində olub.

Beləliklə, istər özfəaliyyət ansambllarındakı fəaliyyəti, istərsə də BXM-dəki yüksək təhsil alması mövzumuzun qəhrəmanını peşəkar sənətə tam hazırlamışdı. O, 2001-ci ildə "Cəngi" estrada-folklor ansambla gələrək rəqs qrupunda çalışmağa başlayıb. Həmin vaxt rəqs ansamblının direktoru Yusif Məmmədov, baletmeysteri əməkdar artist Xanlar Beşirov idi. Xanlar müəllim ansamblın bütün rəqs sənətçiləri, bu sırada Fərhadla ciddi iş qururdu. Fərhad repertuardakı bütün rəqs quruluşlarında əla oyunu ilə seçilir, sevilir və dəyərləndirilirdi. Burada onun qol-qanadı tam açılmışdı. Yaxşı sənət göstərmək üçün münbit şərait və imkan vardı. Xanlar Beşirovun fikirlərindən: "Fərhad Əliyev istər kütləvi rəqslərdə, istər duetlərdə ona verilən tapşırıqları, səhnə mizanlarını layiqincə yerinə yetiirir, sərbəst olur, yaxşı solo oynayır və maraqlı, daim tamaşaçı alqışları qazanan tryuklar edirdi. Tullanmalar, dizlərlə sürünmələr və ayaq barmaqları üstə tryukları bacarıqlı halda göstərirdi".

Baletmeyster Qəhrəman Nəsirovun vaxtılə quruluş verdiyi rəqslər də repertuardan çıxarılmamışdı. Xanlar Beşirov xalq artisti, ustad sənətkar Əlibaba Abdullayevin həmişəyaşar rəqs quruluşlarını da daim repertuara daxil edirdi.

Nümunə olaraq qeyd edirik ki, konsert proqramındakı "Qaytağı" (T.Quliyev) və "İgidlər" rəqsindəki sololarda Fərhad tam şəkildə yüksək peşəkarlıq göstərirdi. Bəli, bu başqa bir aləm idi.

"Cəngi" ansamblı səmərəli, çox samballı çalışmaqda, fasiləsiz olaraq konsertlərdə və bütün dövlət tədbirlərində çıxışları ilə seçilib. Belə konsertlərin hər birində təbii ki, Fərhad Əliyevin gümrah, şux, mənliqi, təmtəraqlı rəqsləri özünəxas məna kəsb edirdi.

Fərhadın öz ixtisası üzrə ali təhsil almaq arzusu da vardı. 2000-ci Mədəniyyət və İncəsənət Universitetin baletmeyster fakültəsinə qəbul olunmaq istəsə, testdən normal bal yığsa da, ona qəsdən aşağı qiymət yazmışdılar ki, qəbul olunmasın. Bəli, çox əfsus ki, bizdə bəzən belə hallar olur.

Onun rəqs sənətindəki fəaliyyəti adi deyil, əslində genişdir və zənginliyə bürünmüşdür. Məqaləni diqqətlə izləsək bir daha bunun şahidi olarıq. Bu barədə Fərhad fəxarət hissi keçirərək qürurlana bilər.

F.Əliyev 2014-ilin mart ayında Novruz bayramı ilə əlaqədar Türksoyun Ankarada və İstanbulda, sonra isə ABŞ-nın Vaşinqton DC-də keçirilən konsertlərində çıxış etmişdir. Həmin ilin may ayında Azərbaycan Gənclər və İdman Nazirliyinin xəttilə Dağıstanda Heydər Əliyevin doğum gününə həsr olunmuş konsertdə onun çıxışı güclü



alqışlara qərq edilmişdi. 2015-ci ildə Türkmənistanın Mərv şəhərində Türk dünyası paytaxtı seçilməsi ilə əlaqədar baş tutmuş möhtəşəm tədbirdə də Fərhadın rəqsləri böyük marağa səbəb olmuşdu. 2015-ci ildə o yenə uğurlarla qarşılaşmışdır. Türksoyun dəvəti ilə Ankarada, ardıcıl olaraq Parisdə UNESCO-nun baş qərargahında, Almaniyada Kölndə, Belçikanın Brüssel, Avstriyanın Vyana şəhərində Novruz bayramı konsertlərində gözəl rəqslər nümayiş etdirmişdir. Həmçinin orada bu işlərdə rejissor köməkçisi kimi də fəaliyyət göstərmişdir.

2015-ci ildə Azərbaycanda keçirilən 1-ci Avropa oyunlarının açılış mərasimində F.Əliyevin rəqsləri böyük marağa səbəb olmuşdur. 2016-cı ilin mart ayında Türkiyənin Ankara şəhərində və daha sonra ABŞ-ın New-York, Merriland, New-Jersey ştatlarında gözəl çıxışları ilə dərin rəğbət qazanmışdır. O, 2016 ildə U-17 futbol üzrə dünya çempionatının açılış mərasimində bədii hissəyə bacarıqla rəhbərlik etmişdir. Həmin ildə sənətçimiz Formula -1 yarışmasının bədii hissəsini hazırlayan heyətin tərkibində də olmuşdur.

2016-cı ildə Şəki şəhəri Türk dünyasının paytaxtı seçilmişdir. Həmin zaman F.Əliyev oradakı konsert proqramının tərkibində də layiqincə çıxış etmişdir. Həmin ildə "Cəngi" estrada-folklor ansamblın təşəbbüsü ilə keçirilən "Dost qapısı" Beynəlxalq festivalda Fərhad tədbir rejissoru idi. O, 2017-ci ildə Qazaxıstanın Türküstan şəhərində çıxış etmiş və eyni zamanda Qızıl Orda şəhərində böyük bir konsertin rejissoru olmuşdur.

F.Əliyev ömrünü milli rəqs sənətinə həsr edərək bu sahəyə sədaqətlə xidmət göstərib, ardıcıl şəkildə daim uğurlu, zəngin fəaliyyətdə olaraq səfərlərdə də həmişə yüksək nailiyyətlər əldə etmişdir.

2017-ci ildə Qazaxıstanda keçirilən Buran Bell Beynəlxalq yarışmada iyirmi üç ölkədən dəvətli sənətçilər var idi. Fərhadgil bu qədər sənət adamları arasından birinci yerə layiq görülmüşdülər. O, həmin ilin aprel ayında Bakıda keçirilən Şopping festivalda da iştirakçı olaraq nailiyyət əldə etmişdir.

Fərhad 2017-ci ildən bu günə qədər Azərbaycan Rəqs Assosiasiyasında uşaqlar arasında keçirilən Beynəlxalq müsabiqələrdə hakim kimi iştirak etməkdədir. 2018-ci ildə Birləşmiş Ərəb Əmirliklərinin Fujeyrə şəhərində keçirilən festivalda iştirakçı olan Fərhad diqqəti cəlb edən sənətkar kimi böyük rəğbət qazanmışdır. 2018-ci ildə Türksoyun dəvəti əsasında bir daha Novruz bayramı ilə əlaqədar ardıcıl tədbirlərdə onun çıxışları məhəbbətlə qarşılanmışdı. 2019-cu ildə Türksoyun Türkiyədə Əskişəhərdə, sonra Belçikada və Almaniyada keçirdiyi tədbirlərə F.Əliyevin də dəvəti olmuş və sənətçimiz gözəl rəqslərlə tamaşaçıların alqışlarını



qazanmışdı.

Fərhad Əliyev 2019-cu il sentyabr ayının 17-dən "Cəngi" estrada-folklor ansambla baş baletmeyster vəzifəsinə təyin olunmuşdur. 2019-cu ilin dekabr ayı və 2020-ci il fevralın 3-ü arasında Abu-Dhabi şəhərində keçirilən Şeyx Zayed festivalında da iştirak edən Fərhad yaxşı işə imza atmış və rəqslərimizi sevdirmişdi. Bu bir danılmaz faktdır ki, Azərbaycan rəqsləri dünyanın hər yerində bəyənilir və sevilir.

2020-ci ildə Covid-19 pandemiyası ilə əlaqədar olaraq Azərbaycan Mədəniyyət Nazirliyi və Bakı Mədəniyyət Baş idarəsi tərəfindən "Evdə qal, sağlam qal" layihəsi çərçivəsində F.Əliyev distant olaraq rəqs hərəkətlərini tamaşaçılara göstərərək məşğələlər keçmişdir. 2021-ci ildə Misir Ərəb Respublikasının İsmailiyyə şəhərində 31-ci Beynəlxalq festival keçirilmişdir. Həmin festivalda da Fərhadın rəqsləri xüsusi əhəmiyyət kəsb etmişdir. O, 2021-ci ilin dekabr ayında Qətər ölkəsində keçirilən FİFA-ın Arab CUP futbol çempionatının açılış mərasimində iştirak edərək vətənimizin başını uca etmişdir. 2022-ci ilin mart ayında Bakı şəhər icra hakimiyyəti və Səbail rayon icra hakimiyyəti tərəfindən keçirilən Novruz bayramı şənliklərini Fərhadın rəqsləri də bəzəmişdir. Həmin ilin mayında Şuşa şəhərində keçirilən 5-ci Beynəlxalq "Xarı bülbül" festivalı ölkəmiz və bütünlükdə Türk dünyası üçün böyük sevinc, fərəh və qürur mənbəyi oldu. F.Əliyev həmin möhtəşəm festivalda da iştirakçı olmuşdur. 2001-2022-illər arasında AzTV, Space, ANS, Xəzər, Lider və Mədəniyyət kanallarının səhər verilişlərində və bir sıra digər müxtəlif konsertlərdə F.Əliyevin rəqsləri daim xoş ovqat və dərin sevincə bürünən zövq bəxş etmişdir. Belə nailiyyətlər, uğurlu işlər və səmərəli fəaliyyət davam etməkdədir.

Mövzunun qəhrəmanı Fərhad Əliyev əsl xoşbəxtliyi sevdiyi sənətdə əldə etdiyi kimi, bunu ailə quranda da tapa bilib. Bu, Uca Rəbbimizin ona bəxş etdiyi ən böyük bəxtəvərlikdir. O, 2004-cü ildə çoxdan tanıdığı, könül verdiyi, özü qədər inandığı rəqqasə xanım, onunla eyni kollektivdə çalışan Natəvan Rüstəm qızı Bayramova-Əiyeva ilə ailə qurub. Bu xoşbəxt ailənin iki bəxtəvər qız övladı var. Əminə 2005-ci il dekabrın 6-da dünyaya gəlib. Bakı Xoreoqrafiya Akademiyasında kollec təhsilini bitirib. Bakalavr üzrə I kursda oxuyur. Cəmilə 25 yanvar 2010-cu ildə anadan olub. Xırdalandakı 2 saylı tam orta məktəbin VIII sinfində oxuyur.

Fərhadı yaxşı tanıyanlar onun vətən sevgili bir insan olduğunu yaxşı bilirlər. Onun bir neçə dostundan eşitdiklərimi də yazıya daxil etməli oldum. Fərhad 44 günlük müharibədə könüllü olaraq öz avtomobili ilə müntəzəm olaraq Füzuli-Cəbrayıl cəbhə bölgəsində döyüşən əsgərlərə pal-paltar və siqaretlərin çatdırılmasında çox fəal olub. O apardığı ləvazimat onun öz maddi hesabı ilə əldə edilirdi. Bunun məqaləyə daxil edilməsini o özü istəməsə də, Fərhadın dostlarından eşitdiyimi yazmalı oldum. Hərbi hissələrin komandirlərinin ona təqdim etdikləri fəxri fərmanlar və təşəkkürnamələr Fərhad Əliyevin arxivindədir.

Fərhad-bu adın izahına da nəzər salsaq yaxşı olar. Bəli, Fərhad sözünün anlamı belədir: 1.qalib, qələbəçalan. 2.Başa düşən, anlayan. 3.İgid, cəsur. Fərhad Əliyevin sənət fəaliyyətinə, ömür yoluna, qazandığı nailiyyətlərə diqqətlə nəzər salsaq, onun öz adını doğrulduğuna tam əmin olarıq. Bəh-bəh. Burada yerinə düşər, deyək afərin sənətkar.

**Əhsən RƏHMANLI**
**Tədqiqatçı, Sənətşünaslıq üzrə fəlsəfə doktoru**